56.5.4. Biləv, Bist, Xurs, Nəsirvaz, Parağa, Parağaçay qəsəbə və Tivi bələdiyyələrinin əhatə etdiyi Ağdərə, Parağaçay qəsəbələrində və Behrud, Biləv, Bist, Ələhi, Xurs, Nəsirvaz, Nürgüt, Parağa, Tivi kəndlərində Biləv bələdiyyəsi;

56.5.5. Çənnəb, Düylün, Qoşadizə və Üstüpü bələdiyyələrinin əhatə etdiyi Çənnəb, Düylün, Kələntər Dizə, Qoşadizə, Məzrə və Üstüpü kəndlərində Düylün bələdiyyəsi;

56.5.6. Dırnıs, Kələki, Unus və Vələver bələdiyyələrinin əhatə etdiyi Anaqut, Başkənd, Dırnıs, Kələki, Qoruqlar, Pəzməri, Unus və Vələver kəndlərində Dırnıs bələdiyyəsi;

56.5.7. Xanağa və Vənənd bələdiyyələrinin əhatə etdiyi Ağrı, Dizə, Xanağa və Vənənd kəndlərində Vənənd bələdiyyəsi;

56.5.8. Ordubad və Şəhriyar bələdiyyələrinin əhatə etdiyi Ordubad şəhərində, Şəhriyar qəsəbəsində və Kilit, Kotam kəndlərində Ordubad bələdiyyəsi.

**56.6. Sədərək rayonu üzrə:**

56.6.1. Heydərabad, Qaraağac və Sədərək bələdiyyələrinin əhatə etdiyi Heydərabad qəsəbəsində və Qaraağac, Sədərək kəndlərində Sədərək bələdiyyəsi.

**56.7. Şahbuz rayonu üzrə:**

56.7.1. Ağbulaq, Aşağı Qışlaq, Biçənək, Gömür, Kolanı və Yuxarı Qışlaq bələdiyyələrinin əhatə etdiyi Ağbulaq, Aşağı Qışlaq, Biçənək, Gömür, Kolanı və Yuxarı Qışlaq kəndlərində Kolanı bələdiyyəsi;

56.7.2. Ayrınc, Güney Qışlaq, Kükü, Qızıl Qışlaq, Mahmudoba və Nursu bələdiyyələrinin əhatə etdiyi Ayrınc, Güney Qışlaq, Kükü, Qızıl Qışlaq, Mahmudoba və Nursu kəndlərində Ayrınc bələdiyyəsi;

56.7.3. Badamlı, Badamlı qəsəbə, Daylaqlı, Sələsüz, Şada, Şahbuz və Türkeş bələdiyyələrinin əhatə etdiyi Şahbuz şəhərində, Badamlı qəsəbəsində və Badamlı, Daylaqlı, Kiçikoba, Mərəlik, Sələsüz, Şada, Türkeş kəndlərində Şahbuz bələdiyyəsi;

56.7.4. Keçili, Külüs və Şahbuzkənd bələdiyyələrinin əhatə etdiyi Keçili, Külüs və Şahbuzkənd kəndlərində Külüs bələdiyyəsi.

**56.8. Şərur rayonu üzrə:**

56.8.1. Axaməd, Kərimbəyli, Kürçülü, Kürkənd və Maxta bələdiyyələrinin əhatə etdiyi Axaməd, Kərimbəyli, Kürçülü, Kürkənd, Qaraburc və Maxta kəndlərində Kürçülü bələdiyyəsi;

56.8.2. Axura, Aşağı Yaycı, Dizə, Gümüşlü, Havuş, Həmzəli, Oğlanqala və Yuxarı Yaycı bələdiyyələrinin əhatə etdiyi Axura, Aşağı Yaycı, Dizə, Gümüşlü, Havuş, Həmzəli, Oğlanqala, Şahbulaq və Yuxarı Yaycı kəndlərində Dizə bələdiyyəsi;

56.8.3. Alışar, Xələc, Qorçulu və Muğanlı bələdiyyələrinin əhatə etdiyi Alışar, Xələc, Qorçulu və Muğanlı kəndlərində Alışar bələdiyyəsi;

56.8.4. Arbatan, Çəmənli, Çərçiboğan, Çomaxtur və Dərvişlər bələdiyyələrinin əhatə etdiyi Arbatan, Arpaçay, Babəki, Çəmənli, Çərçiboğan, Çomaxtur və Dərvişlər kəndlərində Çərçiboğan bələdiyyəsi;

56.8.5. Aşağı Aralıq, Kosacan, Siyaqut və Yuxarı Aralıq bələdiyyələrinin əhatə etdiyi Aşağı Aralıq, Kosacan, Siyaqut və Yuxarı Aralıq kəndlərində Siyaqut bələdiyyəsi;

56.8.6. Aşağı Daşarx, Dərəkənd, Yeni Havuş və Yuxarı Daşarx bələdiyyələrinin əhatə etdiyi Aşağı Daşarx, Dərəkənd, Xətai, Oğuzkənd, Yeni Havuş və Yuxarı Daşarx kəndlərində Daşarx bələdiyyəsi;

56.8.7. Cəlilkənd, Düdəngə, Mahmudkənd və Zeyvə bələdiyyələrinin əhatə etdiyi Bəhruz Kəngərli, Cəlilkənd, Düdəngə, Günnüt, Mahmudkənd və Zeyvə kəndlərində Düdəngə bələdiyyəsi;

56.8.8. Danyeri, Püsyan və Tənənəm bələdiyyələrinin əhatə etdiyi Danyeri, Püsyan, Tənənəm və Təzəkənd kəndlərində Püsyan bələdiyyəsi;

56.8.9. Ələkli, Xanlıqlar və Vərməziyar bələdiyyələrinin əhatə etdiyi Ələkli, Xanlıqlar, Stansiya Daşarx və Vərməziyar kəndlərində Xanlıqlar bələdiyyəsi;

56.8.10. Ərəbyengicə, İbadulla, Qarahəsənli, Qışlaqabbas və Tumaslı bələdiyyələrinin əhatə etdiyi Diyadin, Ərəbyengicə, İbadulla, Qarahəsənli, Qışlaqabbas, Tumaslı və Vayxır kəndlərində Qışlaqabbas bələdiyyəsi;

56.8.11. Qarxun, Məmmədsabir, Muğancıq Mehrab və Sərxanlı bələdiyyələrinin əhatə etdiyi Qarxun, Məmmədsabir, Muğancıq Mehrab, Muğancıq Müslüm və Sərxanlı kəndlərində Qarxun bələdiyyəsi;

56.8.12. Şəhriyar, Şərur və Yengicə bələdiyyələrinin əhatə etdiyi Şərur şəhərində və Şəhriyar, Yengicə kəndlərində Şərur bələdiyyəsi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2024-cü il*

## "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 689 (Cild I) Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2024-cü il*

## G.B.Baxşəliyevanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə və elmin inkişafında xidmətlərinə görə Gövhər Baxşəli qızı Baxşəliyeva "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2024-cü il*

## Prezident İlham Əliyev Kəlbəcər Şəhəri Günü münasibətilə paylaşım edib




Prezident İlham Əliyev Kəlbəcər Şəhəri Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Zəfər tariximiz - Kəlbəcərin Ermənistan işğalından azad edilməsindən dörd il ötür".

## Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri zati-aliləri xanım Jelka Tsviyanoviçə

Hörmətli xanım Sədr!

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Bosniya və Herseqovina arasında dostluq və əməkdaşlıq əlaqələrinin səviyyəsi məmnunluq doğurur.

Bakıda keçirilən COP29 çərçivəsində Sizinlə görüşümü xoş təəssüratlarla xatırlayıram.

İnanıram ki, dövlətlərarası əlaqələrimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Bosniya və Herseqovina xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 noyabr 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 495** QƏRAR **Bakı şəhəri, 23 noyabr 2024-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 4 oktyabr tarixli 161 nömrəli Qərarı ilə təsdiq edilmiş "Meşə təsərrüfatına dəyən zərərin və itkilərin ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 4 oktyabr tarixli 161 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,1999, № 10, maddə 595 (Cild I) ilə təsdiq edilmiş "Meşə təsərrüfatına dəyən zərərin və itkilərin ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Meşə fondu torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi və ya meşə fondundan istifadə nəticəsində bu Qaydanın 4-cü hissəsi ilə müəyyən edilmiş hallarla bağlı meşə təsərrüfatına dəyən zərər və itkilər tam şəkildə ödənilməlidir.".

2. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Meşə fondu torpaqlarının qeyri-meşə torpaqlarına keçirilməsi və ya meşə fondundan istifadə nəticəsində meşə təsərrüfatına dəyən zərər və itkilər Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları haqqında" 1993-cü il 27 dekabr tarixli 636 nömrəli, "Respublika meşələrində əsas meşə və kol cinslərinin yeni köküstə buraxılış nırxlarının təsdiq edilməsi haqqında" 1994-cü il 24 avqust tarixli 312 nömrəli qərarları və 2000-ci il 15 mart tarixli 45 nömrəli Qərarı ilə təsdiq edilmiş "Meşələrin iqtisadi qiymətləndirilməsinin Metodikası"na uyğun olaraq tənzimlənir.".

3. 5-ci hissə aşağıdakı məzmunda verilsin:

"5. Bu Qaydanın 4-cü hissəsinə əsasən meşə təsərrüfatına dəyən zərər və itkilərə görə hesablanmış məbləğin təqsirkar fiziki və hüquqi şəxslər tərəfindən ödənilməsi üçün Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ziyanın miqdarı ilə bağlı qərar (hesabat sənədi ilə birlikdə) təqsirkar olan fiziki və hüquqi şəxslərə şəxsən təqdim olunur və ya poçt rabitəsi vasitəsilə, yaxud elektron üsulla göndərilir. Meşə təsərrüfatına dəymiş ziyanın ödənilməsi təqsirkar fiziki və hüquqi şəxslər üçün məcburidir, bununla əlaqədar mübahisələr inzibati qaydada vəməhkəmə qaydasında həll edilir.".

4. 6-cı hissədə "və Azərbaycan Respublikası Meşə Məcəlləsinin pozulması ilə əlaqədar" sözləri ", və ya meşə fondundan istifadə nəticəsində" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 496** QƏRAR **Bakı şəhəri, 23 noyabr 2024-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 noyabr tarixli 182 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Respublika Qan Bankı" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 151 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 noyabr tarixli 182 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1064 (Cild I); 2024, № 9, maddə 1051) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. I bölmənin 1-1.2-1-1.9-cu bəndləri ləğv edilsin.

2. III bölməyə aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

"6. Respublika Qan Bankı

6.1. Respublika Qan Bankının Gəncə bölməsi

6.2. Respublika Qan Bankının Şəki bölməsi

6.3. Respublika Qan Bankının Quba bölməsi

6.4. Respublika Qan Bankının Sumqayıt bölməsi

6.5. Respublika Qan Bankının Lənkəran bölməsi

6.6. Respublika Qan Bankının Bərdə bölməsi

6.7. Respublika Qan Bankının Şirvan bölməsi

6.8. Respublika Qan Bankının Mingəçevir bölməsi".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin dekabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Balakən | Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ | 04 |
| 2. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Ağdam (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Laçın | 04 |
| 3. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən | 04 |
| 4. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Saatlı | Saatlı, Sabirabad, İmişli | 05 |
| 5. | **Baş prokuror** Kamran Əliyev | Sumqayıt | Sumqayıt, Qubadlı | 06 |
| 6. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Xaçmaz | Xaçmaz, Şabran | 06 |
| 7. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | İsmayıllı | İsmayıllı, Ağsu, Şamaxı, Qobustan | 06 |
| 8. | **Ədliyyə naziri** Fərid Əhmədov | Kürdəmir | Kürdəmir, Ucar, Ağdaş, Yevlax | 13 |
| 9. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | Quba | Quba, Qusar | 13 |
| 10. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Ağcabədi | Ağcabədi, Ağdam, Laçın | 13 |
| 11. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Salyan | Salyan, Biləsuvar, Neftçala | 13 |
| 12. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Gəncə | Gəncə, Samux, Göygöl, Daşkəsən, Goranboy, Kəlbəcər | 13 |
| 13. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Qax | Qax, Şəki | 13 |
| 14. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Gədəbəy | Gədəbəy, Şəmkir | 13 |
| 15. | **Mədəniyyət naziri** Adil Kərimli | Kürdəmir | Kürdəmir, Ucar, Zərdab, Ağdaş, Yevlax, Mingəçevir, Göyçay | 14 |
| 16. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Abşeron | Abşeron, Zəngilan | 19 |
| 17. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Gəncə | Gəncə, Samux, Kəlbəcər | 19 |
| 18. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Tərtər | Tərtər, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Şuşa, Xocalı, Xocavənd | 20 |
| 19. | **Energetika naziri** Pərviz Şahbazov | Lənkəran | Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad | 20 |
| 20. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Sumqayıt | Sumqayıt, Abşeron, Qubadlı | 20 |
| 21. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Siyəzən | Siyəzən, Xızı | 20 |
| 22. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Masallı | Masallı, Yardımlı | 20 |
| 23. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Qəbələ | Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən | 20 |
| 24. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Beyləqan | Beyləqan, Füzuli, Xocavənd | 20 |
| 25. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Saatlı | Saatlı, Sabirabad | 23 |
| 26. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Sumqayıt | Sumqayıt, Abşeron, Xızı, Qubadlı, Zəngilan | 26 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

## Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2024-cü ilin dekabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV** Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini | 2 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini | 4 |
| **Musa Cəfər oğlu QASIMLI** Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini | 11 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini | 5 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 2 |
| **Arzu Nəsib oğlu NAĞIYEV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 18 |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 23 |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 6 |
| **Azər Kamal oğlu ƏMİRASLANOV** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 20 |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 10 |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 16 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 19 |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 9 |
| **Şahin Əmir oğlu İSMAYILOV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 24 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 13 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 25 |
| **Anar Camal oğlu İSGƏNDƏROV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 17 |
| **Polad BÜLBÜLOĞLU** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 26 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 12 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | 6 |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 3 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | 10 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 13 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 17 |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 27 |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 24 |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 20 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədi ilə;**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edir.**

**Telefonlar: (012) 510-99-38; (012) 492-74-05; (012) 510-89-14.**

## Milli Məclisin iclasında

# Parlamentdə büdcə müzakirələri başladı

**Noyabrın 25-də Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.**

İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova öncə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ilə bağlı qənaətlərini bölüşüb. COP29-un uğurla başa çatdığını deyən Sahibə Qafarova qeyd edib ki, tədbirin iqlim dəyişmələri probleminin həlli üçün göstərilən qlobal səylərə verdiyi töhfələr haqqında hələ çox danışılacaq: "Bəşəriyyətin gələcəyi ilə bağlı olan bu dünyamiqyaslı tədbiri ən yüksək səviyyədə keçirməklə, Azərbaycan istər regional, istərsə də qlobal iqlim problemlərinin həllində lider imicini möhkəmləndirdi və yeni mötəbər toplantıların keçirilməsi imkanlarını daha da artırdı".

COP29 çərçivəsində noyabrın 16-da və 17-də Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Parlament Görüşü keçirildiyini diqqətə çatdıran spiker bu tədbirdə milli parlamentlərin, parlamentlərarası təşkilatların, habelə müxtəlif təsisatları təmsil edən 67 ölkədən 95 nümayəndə heyətinin, başqa sözlə, 345 nəfər parlament təmsilçisinin iştirak etdiyini bildirib. Sahibə Qafarova diqqətə çatdırıb ki, görüşün açılışında etdiyi çıxışda bir tezisi xüsusilə vurğulayaraq bildirib ki, Azərbaycan hələ COP29-a ev sahibi seçilməzdən xeyli əvvəl Prezident İlham Əliyevin rəhbərliyi ilə iqlimlə bağlı fəaliyyəti, "yaşıl gündəliy"i öz milli planlarının mərkəzinə yerləşdirib.

Ölkəmiz könüllü öhdəliklər götürərək, bərpaolunan enerji layihələri həyata keçirərək və "yaşıl enerji" zonaları yaradaraq, gələcək inkişaf yolunda əzm və qətiyyət nümayiş etdirib.

Milli Məclisin Sədri qeyd edib ki, bilik, təcrübə və qabaqcıl praktika mübadiləsi sahəsində parlament əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Biz qanunvericiliyimizi daha da təkmilləşdirməli, hökumətlərimizi öz səylərini daha yaxşı səfərbər etməyə təşviq etməliyik.

Spiker məlumat verib ki, Parlament Görüşü çərçivəsində yeddi sessiya keçirilib, həmçinin tədbir zamanı Azərbaycan Milli Məclisi ilə Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament arasında anlaşma memorandumu imzalanıb.

Sahibə Qafarova COP29-da və Parlament Görüşündə iştirak etmək üçün Bakıya gəlmiş beynəlxalq parlament təşkilatlarının, bir sıra parlamentlərin sədrləri ilə Milli Məclisdə 15 ikitərəfli görüş keçirildiyini bildirərək deyib: "Onlardan Parlamentlərarası İttifaqın prezidenti və Baş katibi, ATƏT-in Parlament Assambleyasının vitse-prezidenti, Aralıq dənizi Parlament Assambleyasının prezidenti, Millətlər Birliyinin Baş katibi Baronessa Skotland, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının 76-cı Baş naziri xanım Tereza Mey, Albaniya, Özbəkistan, Tacikistan, Tonqa, Zimbabve parlamentlərinin sədrləri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri və üzvləri, digər ali vəzifəli şəxslər ilə söhbətlərdə COP29-un və Parlament Görüşünün uğurlu təşkili, bu tədbirlərdə müzakirələr ilə bağlı fikir mübadiləsi aparıldı. Həmsöhbətlərimə regionda vəziyyət, Azərbaycanın reallıqları, ölkəmizin işğaldan azad olunmuş ərazilərində görülən işlər, o cümlədən həyata keçirilən "yaşıl enerji" layihələri barədə geniş məlumat verdim".

Sonra spiker Sahibə Qafarova başçılıq etdiyi nümayəndə heyətinin noyabrın 20-dən 22-dək Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri barədə məlumat verib. Qeyd edib ki, səfərdə məqsəd MDB Parlamentlərarası Assambleyasının Şura və 57-ci Plenar iclaslarında iştirak etmək idi.

Bildirilib ki, səfər çərçivəsində noyabrın 21-də assambleyanın Şura iclasında bir sıra təşkilati məsələlər ilə yanaşı, sentyabrın 1-də Azərbaycanda keçirilmiş növbədənkənar parlament seçkilərini müşahidə edən MDB Parlamentlərarası Assambleyası missiyasının yekun rəyi də müzakirə edilib. Spiker oradakı çıxışında bu ilin fevralında keçirilmiş prezident seçkilərindən sonra Milli Məclisə seçkilərin ölkəmizin bütün suveren ərazisində keçirilən ilk parlament seçkiləri olduğunu xüsusilə qeyd edib.

Noyabrın 22-də isə MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının 57-ci plenar iclası keçirilib. Spiker oradakı çıxışında Prezident İlham Əliyevin xüsusi diqqəti və dəstəyi ilə Bakıda keçirilən COP29 haqqında, eləcə də Parlamentlərarası İttifaqın və Milli Məclisin birgə təşkilatçılığı ilə keçirilmiş Parlament Görüşü barədə geniş məlumat verib.

Bildirib ki, iki gün davam edən görüş və onun yekun sənədi iqlim dəyişikliyi ilə mübarizədə parlamentlərin ümumi mövqeyinin ifadəsi idi. Spiker qeyd edib ki, MDB Parlamentlərarası Assambleyasının tədbirləri çərçivəsində assambleyanın komissiyalarının iclasları keçirilib. Həmin iclaslarda bizim deputatlarımız fəal iştirak ediblər.

Milli Məclisin Sədri onu da qeyd edib ki, Sankt-Peterburq şəhərinə səfər çərçivəsində Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko və Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova ilə ikitərəfli görüşlər də keçirib. Spiker bildirib ki, noyabrın 25-də ölkəmizdə Kəlbəcər Şəhəri Günü qeyd edilir və bu münasibətlə təbriklərini çatdırıb.

Parlamentin sədri iclasın gündəliyinə 12 məsələnin daxil edildiyini və bunların 10-nun birinci oxunuşda dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələri olduğunu söyləyib. Gündəliyin birinci məsələsinin "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi olduğunu deyən məsələ ilə bağlı fikirlərini bölüşüb. Bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin inkişaf strategiyası ölkə iqtisadiyyatının dinamik inkişafını təmin edir. Ardıcıl həyata keçirilən düşünülmüş islahatlar və strateji təşəbbüslər sayəsində Azərbaycan iqtisadi artım templərini qoruyub saxlayıb, regionun lider dövləti kimi mövqelərini daha da möhkəmləndirib.

Qeyd olunub ki, bu il iqtisadiyyatın əsas sektorlarında mühüm uğurlar müşahidə edilir. Azərbaycan qlobal enerji təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynayır. Bununla yanaşı, ölkəmiz, COP29 konfransı ilə əlaqədar "yaşıl enerji"yə keçid sahəsində irimiqyaslı layihələr reallaşdırır. Qeyri-neft sektoruna, xüsusən kənd təsərrüfatı, turizm və texnologiyalar kimi sahələrə böyük diqqət yetirilməsi ölkəmizin iqtisadi müstəqilliyini daha da möhkəmləndirir və inkişaf perspektivlərini genişləndirir.

Azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına yenidən inteqrasiya etdirilməsi milli gündəliyimizin ön sıralarındadır. Məqsədyönlü investisiyalar, həyata keçirilən infrastruktur, "ağıllı şəhər və kənd" layihələri sayəsində Qarabağ və Şərqi Zəngəzur tərəqqi və innovasiyalar mərkəzinə çevrilir. Keçmiş məcburi köçkün soydaşlarımız doğma yurdlarına dönürlər.

Sosial sahəyə böyük əhəmiyyət verilir. İnsanların rifah halı daha da yaxşılaşdırılır, əmək haqları və pensiyalar artırılır, keyfiyyətli səhiyyə və təhsilin əlçatanlığı təmin edilir.

Spiker bildirib ki, 2025-ci ilin dövlət büdcəsi iqtisadi inkişaf, dayanıqlılıq və inklüzivlik təməlləri üzərində qurulub. Büdcə iqtisadi tərəqqi ilə sosial məsuliyyətin tarazlığına əsaslanır. Dövlət büdcəsinin gəlirlərinin və xərclərinin ildən-ilə artması ölkəmizin ardıcıl və dinamik inkişafını nümayiş etdirən ən mühüm göstəricilərdir.



Milli Məclisin Sədri qeyd edib ki, gələn il üçün dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri rekord həcmdə - müvafiq olaraq 38,3 milyard manat və 41,4 milyard manata yaxın məbləğdə proqnozlaşdırılır.

2025-ci ilin dövlət büdcəsinin prioritetləri ölkənin milli təhlükəsizliyinin və müdafiə potensialının gücləndirilməsi, silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması, sosial müdafiə, təhsil, işğaldan azad olunmuş ərazilərin bərpası və Böyük qayıdışın həyata keçirilməsi ilə bağlı olacaq. Əminliklə söyləmək olar ki, Azərbaycan hökumətinin səmərəli fəaliyyəti gələn il büdcə siyasətinin bütün istiqamətlərində qarşıya qoyulan hədəflərin əldə olunmasına imkan yaradacaq.

Spiker qeyd edib ki, 2025-ci ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin iclaslarında geniş müzakirə olunub və Milli Məclisin plenar iclasına tövsiyə edilib. Yaranmış ənənəyə uyğun olaraq, parlamentdə təmsil edilən siyasi partiyaların rəhbərləri və nümayəndələri İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasına dəvət olunub və iclasda onların hər birinə öz fikirlərini ifadə etməsi üçün şərait yaradılıb.

Hesablama Palatası da büdcə zərfi barəsində müsbət rəyini bildirib.

Spiker bu gün aparılacaq müzakirələrin səmərəli olacağına, deputatların dəyərli fikirlər və təkliflər səsləndirəcəklərinə əminliyini ifadə edib.

Sonra iclasda parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov çıxış edib. O diqqətə çatdırıb ki, 2025-ci ilin dövlət büdcəsi layihəsi ölkə Prezidentinin müəyyən etdiyi strateji vəzifələri və təşəbbüsləri, yeni dövrün çağırışlarını, milli iqtisadiyyatın artım və inkişaf meyillərini, milli inkişaf prioritetlərindən irəli gələn sosial-iqtisadi hədəfləri özündə əks etdirir və onların reallaşdırılması üçün maliyyə təminatı yaradır.

Makro-iqtisadi göstəricilər barədə məlumatda bildirilib ki, ölkənin strateji valyuta ehtiyatları 73 milyard dollar təşkil edir. 2024-cü ilin on ayında müşahidə olunan müsbət makro-iqtisadi meyillər 2025-ci il üzrə proqnozlar üçün pozitiv əsaslar yaradır. Proqnozlara görə, növbəti ildə ümumi daxili məhsul 3,5 faiz, qeyri-neft-qaz ümumi daxili məhsulu 4,9 faiz artacaq. ÜDM-də qeyri-neft-qaz sektorunun payının 68 faizdən 71,3 faizə çatacağı gözlənilir. Adambaşına ÜDM-in 2025-ci ildə 7412 ABŞ dolları təşkil edəcəyi, inflyasiyanın səviyyəsinin 4,6 faiz olacağı proqnozlaşdırılır.

Sonra komitə sədri 2025-ci ilin dövlət büdcəsi layihəsinin əsas parametrlərindən bəhs edib. Qeyd olunub ki, dövlət büdcəsinin gəlirləri 38,3 milyard manat, xərcləri 41,4 milyard manat, kəsiri isə 3 milyard 52 milyon manat proqnozlaşdırılır. Qeyd edilib ki, büdcə gəlirlərinin 49 faizi neft, 51 faizi isə qeyri-neft gəlirlərinin hesabına formalaşacaq. Gəlirlərin 15,5 milyard manatı Dövlət Vergi Xidmətinin, 14,5 milyard manatı Dövlət Neft Fondundan transfertin, 6,6 milyard manatı Dövlət Gömrük Komitəsinin, 840 milyon manatı büdcə təşkilatlarının daxilolmalarının, 895 milyon manatı digər gəlirlərin payına düşür.

Bildirilib ki, 2025-ci ilin dövlət büdcəsi xərclərinin 60,1 faizini cari xərclər, 34,1 faizini əsaslı xərclər, 5,8 faizini dövlət borcuna xidmətlə bağlı xərclər təşkil edir. Büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı olacaq. Sosialyönümlü xərclərin 8,8 faiz artırılaraq 16,9 milyard manata çatması və dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin prioritetliyini ifadə edir. Büdcə zərfinə daxil olan sosial paketin təhlili göstərir ki, şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının sosial müdafiəsi sahəsində dövlət siyasəti, onlara dövlətin diqqət və qayğısı növbəti ildə də davam etdiriləcək. Eyni zamanda çoxşaxəli artımları nəzərdə tutan sosial tədbirlər paketi həyata keçiriləcək. Növbəti ildə minimum əməkhaqqının və minimum pensiyanın artırılması, sosial müavinətlər və təqaüdlər istiqamətində addımların atılması, pensiyaların indeksləşdirilməsi planlaşdırılır. Ümumilikdə sosial paket 3 milyon insanı əhatə edəcək.

Qeyd olunub ki, əhalinin rifahı ilə bağlı dövlət siyasəti özünü digər xərc istiqamətlərində də büruzə verir. Məsələn, iqtisadi fəaliyyətlə bağlı xərclərdə bir sıra dövlət şirkətlərinə subsidiyaların nəzərdə tutulmasının əsas səbəblərindən biri vətəndaşlara göstərilən bəzi xidmətlərin tariflərinin aşağı həddə saxlanılmasıdır. Ötən illər ərzində ölkəmizdə sosial və iqtisadi siyasətin əlaqələndirilməsi və uzlaşdırılması Prezident İlham Əliyevin müəyyən etdiyi əsas prinsip olaraq uğurlu şəkildə həyata keçirilib. Bunun nəticəsidir ki, 2003-2023-cü illər ərzində dövlət büdcəsi xərclərinin təxminən 30 dəfə, ÜDM-in real ifadədə 3,6 dəfə, investisiyaların 4,4 dəfə artımı fonunda Azərbaycanda yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,2 faizə, işsizliyin səviyyəsi 9,2 faizdən 5,5 faizə endirilmişdir.

Komitə sədri söyləyib ki, Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri əsas prioritetlərdəndir. Növbəti ilin dövlət büdcəsi layihəsində bu məqsədlər üçün 4 milyard manat nəzərdə tutulub.

Bildirilib ki, 2025-ci ilin dövlət büdcəsi layihəsi tərtib edilərkən neftin qiyməti 70 dollar götürülüb. 2025-ci ilin büdcə zərfinə əsasən Dövlət Neft Fondundan dövlət büdcəsinə ayrılan transfertlər artırılaraq 14.481 milyon manat nəzərdə tutulur.

Nəzərə çatdırılıb ki, büdcə layihəsində müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə 8,4 milyard manat nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə 17,8 faiz çoxdur. Azərbaycan hərbi xərclərini artırmaqla yanaşı, digər sosial və infrastruktur xərclərini məhdudlaşdırmır. Hərbi xərclərin artırılması digər mühüm istiqamətlər üzrə xərc artımı fonunda baş verir. Hərbi xərclər büdcə məxaricinin 20,3 faizini təşkil etdiyi halda, sosialyönümlü xərclər 41 faizini, iqtisadi fəaliyyətlə bağlı xərclər 21 faizini təşkil edir.

Komitə sədri Azər Əmiralsanov növbəti ilin büdcə layihəsinin ölkəmizin iqtisadi inkişafına, sosial rifaha və milli maraqlarımıza xidmət etdiyini, növbəti ildə dövlətin funksiyalarının, mühüm strateji və cari vəzifələrin həyata keçirilməsi üçün müvafiq maliyyə təminatını yaratdığını vurğulayıb.

Sonra maliyyə naziri Samir Şərifov çıxış edib. Qeyd edib ki, dövlət başçısının qarşıya qoyduğu vəzifələrin icra olunması 2025-ci ilin dövlət büdcəsi layihəsi hazırlanarkən əsas götürülüb. Belə ki, "Azərbaycan Respublikasının 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair Milli Strategiya"nın prioritetlərinə söykənən "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın məqsədlərinin reallaşdırılması, o cümlədən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və yenidən qurulması, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması və onlara layiqli həyat şəraitinin yaradılması, işğaldan azad olunmuş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası, ölkənin müdafiə və milli təhlükəsizliyinin daha da möhkəmləndirilməsi, əhalinin etibarlı sosial təminatının gücləndirilməsi ümdə vəzifələr olaraq qarşıya qoyulub.

Qeyd edilib ki, 2025-ci ilin dövlət büdcəsində təklif olunan 41367,7 milyon manat xərclərin üçdə ikisi və yaxud 27691 milyon manatı məhz yuxarıda qeyd olunan prioritet istiqamətlərin maliyyələşdirilməsi üçün ayrılacaq. O cümlədən Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsinə 4 milyard manat həcmində vəsaitin ayrılması nəzərdə tutulur. Ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi və ordu quruculuğunun daha da modernləşdirilməsi, dövlət sərhədlərinin qorunması, hərbi-sənaye kompleksinin inkişafı xərclərinə 8,4 milyard manat məbləğində vəsait yönəldiləcək.

Diqqətə çatdırılıb ki, 2025-ci ildə sosialyönümlü xərclər 16910 milyon manat və ya dövlət büdcəsi xərclərinin 41 faizini təşkil edəcək. Sosialyönümlü xərclərin əsasını təşkil edən əməkhaqqının, pensiya və sosial müavinətlərin artırılması üçün dövlət büdcəsində müvafiq vəsait nəzərdə tutulub. Növbəti ildə əhalinin sosial cəhətdən həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi və sosial təminat xərcləri üçün 4812 milyon manat, ünvanlı dövlət sosial yardım üçün 457 milyon manat, keçmiş məcburi köçkünlərin sosial müdafiəsi üçün 311 milyon manat vəsait ayrılacaq.

Bildirilib ki, büdcə layihəsində təhsil xərclərinə 4946,1 milyon manat ayrılması proqnozlaşdırılır və bu, 2024-cü illə müqayisədə 395,7 milyon manat və ya 8,7 faiz çoxdur. Valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil olmuş şəxslərin və keçmiş məcburi köçkünlərin övladları olan tələbələrin, müharibə veteranlarının ali təhsil xərclərinin dövlət hesabına ödənilməsi üçün 41 milyon manat vəsait ayrılacaq.

Səhiyyə xərcləri üçün dövlət büdcəsindən 1999,0 milyon manat vəsait nəzərdə tutulur ki, bu, 2024-cü illə müqayisədə 7,1 faiz çoxdur. Bu vəsaitin 1267,0 milyon manatı və yaxud 63,4 faizi dövlətin əhalinin icbari tibbi sığortalanması ilə bağlı xərclərinin payına düşür.

Qeyd olunub ki, növbəti ilin dövlət büdcəsi gəlirlərinin tərkib hissəsi olan yerli gəlirlər 795,0 milyon manat nəzərdə tutulur, büdcənin yerli xərcləri 800,3 milyon manat məbləğində proqnozlaşdırılır. Dövlət büdcəsinin ehtiyat fondları cari illə müqayisədə 38 milyon manat artaraq 448 milyon manat təşkil edəcək.

2025-ci ilin dövlət büdcəsinin xərclərinin maliyyə təminati ilə bağlı diqqətə çatdırılıb ki, xərclərin 92,6 faizinin və ya 38316 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına təmin edilməsi nəzərdə tutulur. 7,4 faizinin və yaxud 3 milyard 52 milyon manatının isə dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi hesabına təmin edilməsi nəzərdə tutulur. Gəlirlərin 19543,0 milyon manatı və ya 51 faizi qeyri-neft-qaz sektorunun, 18773,0 milyon manatı və ya 49 faizi neft-qaz sektorunun payına düşür.

Maliyyə naziri 2025-ci il üçün icmal büdcəsinin əsas parametrləri ilə bağlı məlumatında qeyd edib ki, icmal büdcənin gəlirləri 43911,0 milyon manat, xərcləri 47589,0 milyon manat proqnozlaşdırılır, icmal büdcənin kəsiri isə 3679,0 milyon manat təşkil edəcək.

Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir və xərcləri bərabər olmaqla 540 milyon manat səviyyəsində, muxtar respublikaya ayrılan dotasiya isə 320,5 milyon manat proznozlaşdırılır.

İqtisadiyyat naziri Mikayıl Cabbarov gələn ilin dövlət büdcəsinin iqtisadi parametrləri barədə fikirlərini bildirib. Qeyd edib ki, büdcənin tərtibatı prosesində sosial-iqtisadi inkişaf proqnozları baza, optimist və pessimist ssenarilərdə hazırlanaraq gözlənilən risklərin qiymətləndirilməsi üçün istifadə edilib. Qeyd olunub ki, ÜDM-in növbəti ildə 3,5 faiz (qeyri-neft-qaz sektorunda 4,9 faiz), 2025-2028-ci illərdə isə orta illik hesabla 3,3 faiz ( qeyri-neft-qaz sektorunda isə 5 faiz) artacağı proqnozlaşdırılır. Qeyri-neft-qaz sektorunun ÜDM-də payının hazırkı 66,4 faiz səviyyəsindən ortamüddətli dövrün sonuna 77,8 faizə çatacağı gözlənilir. 2025-ci ildə ÜDM-in nominal həcmi 129,2 milyard manat, qeyri-neft-qaz sektorunda ÜDM-in nominal həcmi isə 92,2 milyard manat proqnozlaşdırılır.

Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov çıxış edərək bildirib ki, cari ildə dünyanın əksər iqtisadiyyatlarında sərt pul-kredit siyasətinin tətbiqinin qlobal iqtisadi aktivlik üçün çətinliklər yaratmasına baxmayaraq, 2024-cü ilin ötən dövründə qlobal iqtisadi artımda nikbinlik müşahidə olunub.

Bank sektorunun dayanıqlığı və sabitliyi barədə göstəriciləri diqqətə çatdıran Taleh Kazımov gələn ilin dövlət büdcəsinin layihəsinə münasibət bildirib. O vurğulayıb ki, 2025-ci il və ortamüddətli dövrə təqdim edilən makro-fiskal çərçivə qarşıda duran bir sıra prioritetlərə cavab verir. Mərkəzi Bankın sədri 2024-cü ilin gözlənilən icra göstəriciləri ilə müqayisədə 2025-ci ildə dövlət büdcəsinin cəmi xərclərinin konservativ (5,4 faiz) artımını məqbul qiymətləndirib, 2024-cü ilin büdcəsi ilə müqayisədə 2025-ci il üzrə büdcə kəsirinin 303 milyon manat azaldılmasını da müsbət dəyərləndirib. Diqqətə çatdırılıb ki, aparılan qiymətləndirmələrə görə, 2025-ci ilin dövlət büdcəsində büdcə xərclərinin inflyasiyaya 0,2 faiz bəndi artırıcı təsiri gözlənilir. Bu da əsasən cari xərclərdən irəli gəlir. Hesablamalara görə, əsaslı xərclərin inflyasiya təsiri əhəmiyyətli deyil.

2025-ci il üzrə Mərkəzi Bankın pul siyasətinin prioritetləri barədə danışan Taleh Kazımov əsas məqsədin 12 aylıq inflyasiyanın hədəf diapazonunda saxlanmasının təmin edilməsi olduğunu deyib. O, Mərkəzi Bankın 2025-ci il üzrə iqtisadi artım, inflyasiya, o cümlədən maliyyə sisteminin əsas sektorları üzrə proqnozlarını və qarşıya qoyduğu hədəfləri barədə məlumat verib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinə dair palata tərəfindən hazırlanmış rəyi təqdim edib. Bildirilib ki, aparılan qiymətləndirmələr qanun layihəsindəki gəlir, xərc və kəsir parametrlərinin əsasən düzgün proqnozlaşdırıldığını deməyə əsas verir. Eyni zamanda Hesablama Palatasının tövsiyələri də nəzərə alınmaqla qanun layihəsi Milli Məclisə təqdim olunanadək bəzi maddələrin göstəricilərinin hüquqi aktlara uyğunlaşdırılması və dəqiqləşdirilməsi həyata keçirilib. Rəydə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın makrofiskal göstəriciləri proqnozlarda, həmçinin əksər tədbirlərin maliyyə təminatı icraçı qurumların büdcələrində tam və ya qismən nəzərə alınıb.

Qeyd olunub ki, "Büdcə zərfi"ndə xam neftin qiymətinin dəyişməsi, dövlət borcu və zəmanəti üzrə maliyyə öhdəlikləri, büdcə xərclərinin dayanıqlı gəlir mənbələri ilə təmin olunmaması və iqlim dəyişiklikləri əsas fiskal risklər kimi şərh olunub, risklərə qarşı tədbirlər əks etdirilib. Hesablama Palatası tərəfindən aparılmış təhlillər büdcə sənədləşməsində şərh edilən risklərlə yanaşı, dövlət maliyyəsi üzrə bəzi digər risklərin də olduğunu göstərir. Bu risklər 3 istiqamətdə - makroiqtisadi, spesifik və institusional olaraq qruplaşdırılıb.

Vüqar Gülməmmədov bildirib ki, Hesablama Palatası büdcə gəlirləri üzrə növbəti ildə baza ssenari proqnozlarının icra olunacağı şəraitdə gəlir inzibatçıları üzrə proqnozların icrasında ciddi risklərin olmayacağı qənaətindədir. Xərclər üzrə növbəti ildə büdcə məlumatlarının təhlili xərclərin strukturunda ciddi dəyişikliklərin nəzərdə tutulduğunu göstərir. Cari tələbatın ödənilməsi məqsədilə ayrılan vəsaitlərin növbəti ildə də artacağı nəzərdə tutulur.

Palata sədri vurğulayıb ki, büdcə ölkə strategiyasının icrasının əsas maliyyə mənbəyidir. Bu əsasda istər ölkə strategiyasında, istərsə də ölkəmizin beynəlxalq çağırışlara adekvat cavab verilməsində dövlət büdcəsi layihəsinin rolu ön plana çıxır. Yuxarıda qeyd olunan araşdırmaların və təhlillərin nəticələrini ümumiləşdirərək, Hesablama Palatası belə qənaətə gəlir ki, Milli Məclisə təqdim edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi qanunvericiliyin müvafiq tələblərinə uyğun hazırlanıb.

Fasilədən sonra qanun layihəsi ətrafında müzakirələr aparılıb. Milli Məclisin komitə sədrləri Əhliman Əmiraslanov, Siyavuş Novruzov, Əli Hüseynli, Fazil Mustafa, Zahid Oruc, Tahir Rzayev, Sadiq Qurbanov, deputatlar Heydər Əsədov, Tahir Mirkişili, Vüqar Bayramov, Sahib Alıyev, Kamal Cəfərov, Jalə Əliyeva, Tural Gəncəliyev, Cavanşir Paşazadə, Aydın Mirzəzadə, Razi Nurullayev, Naqif Həmzəyev çıxış ediblər.

Millət vəkilləri gələn ilin dövlət büdcəsi layihəsinin parametrləri, proqnoz göstəriciləri, gəlirləri, xərc istiqamətləri, büdcə vəsaitlərinin icrasında şəffaflığın artırılması, istehsal sahələrinin, iş yerlərinin açılması, regionların iqtisadi inkişafı kimi məsələlərlə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

2025-ci ilin dövlət büdcəsi layihəsinin müzakirələri bu gün davam etdiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

◆ Vətən sərhəddən başlayır

**"İndi yeni dövr başlayır...**

**Sərhədlərimizi daha da güclü qorumalıyıq. Bunu da qarşıya önəmli vəzifə kimi qoyuram. Bu istiqamətdə də önəmli addımlar atılmışdır. Xüsusilə nəzərə alsaq ki, İkinci Qarabağ müharibəsindən sonra biz həm o vaxt işğal altında olan Azərbaycan-İran sərhədinə qayıtmışıq, həm də Azərbaycan-Ermənistan şərti sərhədində yerləşmişik. Əlbəttə ki, sərhəd infrastrukturunun qurulması xüsusi əhəmiyyət daşıyır və biz burada da ən müasir üsullardan istifadə edirik və edəcəyik. Sərhədimiz elə möhkəm bağlı olmalıdır ki, bir quş belə uça bilməsin. Sərhədlərimizin qorunması eyni zamanda bizi xarici risklərdən qoruyacaq. Çünki ölkə daxilində risklər yoxdur. Bütün mümkün olan potensial risklər ölkəmizin hüdudlarından kənarda yerləşir və formalaşır. Təhlükəsizlik tədbirlərinin bundan sonra da görülməsi vacib vəzifə kimi qarşıya qoyulur. Biz özümüzü təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərimizin möhkəmləndirilməsi nəticəsində həm fiziki risklərdən qorumalıyıq, həm də özümüzü ideoloji risklərdən qorumalıyıq. İdeoloji risklər sərhəd tanımır, xüsusilə indiki şəraitdə. Ona görə burada əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır. Bu məsələyə çox ciddi yanaşmalıyıq və mən bunu əsas vəzifələrdən biri kimi qarşıya qoyuram".**

# İlham Əliyevin yaratdığı "yaşıl sərhəd"

## Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunları sülh və təhlükə arasında duran gözəgörünməz güvən divarıdır





Fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyevin yeni dövr üçün müəyyənləşdirdiyi yol xəritəsində qarşıya qoyduğu ən önəmli vəzifələrdən biri sərhədlərimizin toxunulmazlığının təminatı oldu. Dövlət başçısı qəti şəkildə tapşırdı ki, əgər ölkəmizdə hər hansı terror hadisəsinin baş verməməsini istəyiriksə, sabitliyin pozulmasını istəmiriksə, onda elə etməliyik ki, sərhədlərimizdən heç kim icazəsiz keçməsin.

### Sərhəd mühafizəsinin təşkili və inkişafı

Vətən sərhəddən başlayır...

Onu qoruyanlar hər zaman ayıq-sayıq və elə güclü olmalıdırlar ki, ana yurdumuz hər hansı təhlükədən narahat olmasın, vətəndaş sarsılmasın, dövlətçiliyə təhlükə yaranmasın.

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan 2023-cü ilin aprel ayında sərhəd və ərazi bütövlüyünü tam bərpa etdikdən sonra sərhədlərimizin müdafiə və mühafizəsi ən prioritet məsələlərdən biri olub. Hazırda Azərbaycan sərhədləri gecə-gündüz, isti-soyuq demədən elə qorunur ki, istənilən təhlükənin anındaca zərərsizləşdirilməsi qaçılmazdır.

Bunu təmin edən isə ayıq-sayıq Azərbaycan sərhədçisi və ona bu imkanları yaradan təchiz olunduğu maddi-texniki bazadır. Yəni Prezident İlham Əliyevin qarşıya qoyduğu ən mühüm tapşırıq bu gün uğurla yerinə yetirilməkdədir.

Bütün bunlara Dövlət Sərhəd Xidmətinin təşkilatçılığı ilə Sərhəd Qoşunları Komandanlığının birləşmə və hərbi hissələrində xidmət edən hərbi qulluqçuların döyüş hazırlığı və döyüş növbətçiliyi, eləcə də onların sosial-məişət şəraiti ilə tanış olmaq məqsədilə KİV nümayəndələri üçün təşkil olunan mediatur zamanı bir daha şahidlik etdik.

Səfərimiz Sərhəd Qoşunları Komandanlığının "Şəmkir" sərhəd dəstəsindən başladı. Əvvəlcə hərbi hissənin ərazisində şəhidlərimizin əziz xatirəsinə ucaldılmış abidə kompleksi ziyarət edildi, sonra Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarının komandanı tərəfindən müşavirə zalında sərhəd mühafizə bölmələrinin xidməti-döyüş fəaliyyəti, eləcə də dövlət sərhədində təhlükəsizliyin təmin edilməsi sahəsində görülmüş tədbirlər barədə geniş məlumat verildi.

Dövlət Sərhəd Xidməti rəisinin müavini - Sərhəd Qoşunlarının komandanı general-leytenant Araz Məmmədov çıxış edərək bildirdi ki, müstəqillik illərindən sonra sərhəd mühafizəsi sahəsində əldə edilmiş bütün uğur və nailiyyətlərin kökü ötən əsrin 60-80-ci illərində Ümummilli Lider Heydər Əliyevin qəbul etdiyi taleyüklü qərarlarla bağlıdır. Ulu Öndər Heydər Əliyev sovet hakimiyyəti dövründə sərhəd dəstələrinə mütəmadi səfərlər etmiş, sərhədçilərin problemləri ilə yaxından maraqlanmışdır. Heydər Əliyevin göstərdiyi səy və bacarıqlarının nəticəsində respublika büdcəsi hesabına Naxçıvan, Göytəpə, Lənkəran sərhəd dəstələrinin ərazisinin abadlaşdırılması, yaşayış evlərinin tikilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi həyata keçirilib.















Ümummilli Liderin 1996-cı il dekabrın 17-də, 2001-ci il avqustun 16-da və 2002-ci il martın 6-da sərhəd qoşunlarının rəhbər heyəti ilə görüşləri zamanı verdiyi göstərişlər milli sərhəd mühafizəsinə qayğının nümunəsi olub. Ulu Öndərin 2000-ci il avqustun 16-da imzaladığı fərmanla 18 Avqust Sərhədçilərin Peşə Bayramı Günü kimi təsbit edilib, bununla da Azərbaycanda dövlətçilik ənənələrinin dərin köklərə söykəndiyini və bu əlamətdar günün yalnız Azərbaycan sərhədçiləri üçün deyil, xalqımız və dövlətçilik tariximiz üçün də mühüm olduğu nümayiş etdirilib.

2002-ci il iyulun 31-də Ulu Öndər Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin yaradılması barədə fərman imzalayıb. Dövlət Sərhəd Xidmətinin yaradılması və ona mərkəzi icra hakimiyyəti orqanı statusunun verilməsi ilə Azərbaycan sərhədçilərinin xidməti fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.


Azərbaycanın Qarabağda erməni separatizminə son qoyması, sülhün bərqərar olması üçün atdığı ardıcıl və əzmli addımları, mövqeyində səbatlı olması bütövlükdə Cənubi Qafqazın əmin-amanlığına, təhlükəsizliyinə yol açır. Fransa başda olmaqla bəzi Qərb ölkələrinin və beynəlxalq təşkilatların narahatlığının başlıca səbəbi də budur.

Azərbaycana qarşı qərəzli yanaşmadan, ikili standartlar siyasətindən əl çəkməyənlər ölkəmizin evsahibliyini də böyük hiddətlə qarşıladılar. Azərbaycana qarşı informasiya hücumlarına başladılar, dezinformasiyaları dövriyyəyə buraxdılar. COP29 ərəfəsində müxtəlif siyasi dairələrdən edilən bu hücumların, təhdidlərın, çirkin kampaniyaların məqsədi Azərbaycanı qarşısına qoyduğu hədəflərdən yayındırmaq, yüksələn nüfuzuna kölgə salmaq idi. Respublikamızla bağlı həqiqətdən tamamilə uzaq, qərəzli məlumatların məqsədyönlü şəkildə yayılması ölkəmizə qarşı hibrid təhdidlərin təşkilini hədəf götürdü.

Ekoloji problemlər, iqlim dəyişikliyi, ətraf mühitin mühafizəsi, havanın çirklənməsi ilə bağlı olan bu beynəlxalq tədbiri bütün vasitələrlə siyasiləşdirməyə çalışırdılar. Azərbaycana qarşı hibrid təhdidlərlə, həmçinin kiberhücumlar, dezinformasiya xarakterli məlumatların yayılması, sosial şəbəkələrdə qarayaxma kampaniyaları ilə məqsədlərinə çatmağa çalışırdılar.

Həmin günlərdə Qərb mediasında respublikamızın əleyhinə sifarişli yazıların sayı da artdı. Ölkəmizin gücünün daha da artdığı bir vaxtda COP29 ərəfəsində verilən anti-Azərbaycan açıqlamalarının, yazılan şər, böhtan dolu məqalələrin heç bir nəticəsi olmayacağı şübhəsiz idi. Prezident İlham Əliyev oktyabrın 10-da Pre-COP29 tədbirinin iştirakçılarına müraciətində bəyan etmişdi: "Burada bəzi media qurumlarının Azərbaycanın imicini ləkələmək məqsədi daşıyan qarayaxma kampaniyasına toxunmaya bilmərəm. Bu cəhdlər əbəsdir və bizi iqlim dəyişmələrinin mənfi təsirləri ilə mübarizə aparmaq üçün nəcib missiyamızı həyata keçirməkdən çəkindirə bilməz".

COP29 öncəsi Azərbaycana qarşı hücumların təşkilatçılarının, icraçıların qərəzli, açıq-aşkar düşmənçilik xarakteri daşıyan kampaniyalarla məqsədlərinə çata bilmədiyinə ən gözəl cavabı da Prezident İlham Əliyev noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimindəki çıxışında verdi: "Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazir var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!"

COP29-un davam etdiyi günlərdə də Qərbin erməni lobbisinə xidmət etmək üçün hər cür rəzilliyi özlərinə rəva görən siyasətçiləri, yalan xəbər verməkdə yarışa girən mediası, "müstəqil" QHT-ləri ölkəmiz haqqında dezinformasiya və səhv məlumatlarla öz mövqelərini göstərdilər.

Ancaq fitnəkarlara rəğmən dünyanın ən böyük iqlim tədbiri noyabrın 11-də böyük uğurla başladı və davam etdi. Dünya Azərbaycana toplaşdı. Noyabrın 12-də COP29-un Liderlər Sammitinin açılış mərasimində çıxış edən Prezident İlham Əliyevin vurğuladığı kimi, ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a evsahibliyi etmək şərəfi verildi: "Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük". Bu mötəbər beynəlxalq tədbirə evsahibliyi ilə Azərbaycan göstərilən etimada, inama layiq olduğunu təsdiq etdi. Bu dəfə də ölkəmiz qərəzli, fitnəkar anti-azərbaycançı qüvvələrin cəhdlərini öz uğurları ilə puça çıxardı.

COP29 konfransının yekununda bəşəriyyətin gələcəyi üçün müstəsna önəm daşıyan qərarlar qəbul edildi. Qlobal iqlim dəyişmələri ilə bağlı müzakirələrin aparıldığı toplantı dünya ölkələrinin, xüsusilə də inkişaf etməkdə olan dövlətlərin gözlədikləri qərarların qəbulu ilə başa çatdı.

Bu beynəlxalq tədbir eyni zamanda Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha nümayiş etdirdi. Genişmiqyaslı tədbirin öhdəsindən ölkəmiz uğurla gəldi, bu sahədə yüksəksəviyyəli təşkilatçılıq qabiliyyətini nümayiş etdirdi. COP29-un yüksək səviyyədə təşkilinə görə bütün tərəflərin yekdilliklə Azərbaycana rəsmi şəkildə təşəkkür elan olunması barədə qərar qəbulu bunun nəticəsidir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*











COP29 Baku Azerbaijan

# Azərbaycanın nümunəvi evsahibliyi






## 3000-dən çox könüllü

### Onlar COP29-un yüksək səviyyədə keçirilməsinə böyük töhfə verdilər

**COP29 qlobal iqlim siyasətində böyük əhəmiyyət daşıyan və dünyanın bütün dövlətlərinin nümayəndələrini bir araya gətirən platforma kimi yadda qaldı. Bir sıra beynəlxalq tədbirlərə uğurla evsahibliyi edən Azərbaycan COP29-da öz sözünü deməyi bacardı. Dünyanın 196 ölkəsindən gələn, müxtəlif millətlərdən olan qonaqlara evsahibliyi etmək heç də asan deyil. Bu mötəbər tədbirin uğurla, ən yüksək səviyyədə həyata keçirilməsində COP29 könüllülərinin də rolu danılmazdır.**







#### 16 mindən çox vətəndaş könüllü olmaq üçün müraciət etmişdir

COP29 Azərbaycan Əməliyyat Şirkətinin İşçi Qüvvəsi Departamentinin Könüllülərlə iş sektorunun rəhbəri Adilə Əliyevanın qəzetimizə verdiyi açıqlamaya görə, konfrans çərçivəsində ümumilikdə 3000-dən çox könüllü fəaliyyət göstərdi: "COP29 könüllüləri ümumilikdə 17 müxtəlif şöbə üzrə 35 fərqli rolda çıxış edirdilər. Onların işi qonaqların hava limanında qarşılanmasından tutmuş nəqliyyat və yerləşmə proseslərinin təşkilinə, eləcə də tədbir məkanlarında təşkilati işlərin aparılmasına qədər müxtəlif istiqamətləri əhatə edirdi. Gənclərimiz həmçinin tədbirin əsas məkanlarında - Bakı Olimpiya Stadionunda və müxtəlif konfrans zallarında iştirakçı və qonaqlara dəstək olaraq, tədbirin hər bir detalının yüksək səviyyədə təşkilinə töhfələrini verdilər. Hər bir şöbədə fəaliyyət göstərən könüllülər öz bacarıq və təcrübələrinə uyğun tapşırıqlarla təmin olunmuşdular. Bu yanaşma onların həm fərdi, həm də komanda şəklində işləmə bacarıqlarından maksimum səviyyədə istifadə etməyə imkan yaradırdı".

COP29 Könüllülər Proqramının ölkəmizdə yeni rekordlara imza atdığını qeyd edən Adilə Əliyeva bildirdi ki, mayın 29-u qeydiyyat prosesi elan edildiyi andan etibarən ilk 24 saat ərzində 9000-dən çox insan müraciət edib. Ümumilikdə isə 16000-dən çox vətəndaş könüllü olmaq üçün qeydiyyatdan keçib. Müraciət edənlərdən ən motivasiyalı, bacarıqlı və uyğun namizədləri seçmək üçün dördmərhələli prosesdən istifadə edilib. İlk mərhələni keçən 10000 nəfər müsahibəyə dəvət edilib. Müsahibələr zamanı könüllülərin motivasiyası, xarici dil bilikləri və komandada işləmə bacarıqları əsas diqqət mərkəzində olub. Həmçinin müəyyən sahələrdə işləyəcək könüllülər üçün əlavə tələblər nəzərə alınıb, əvvəlki təcrübələr qiymətləndirilib. Nəticədə seçim prosesini uğurla başa vuran namizədlər Ümumi və Rol təlimlərinə dəvət ediliblər. Təlimlər zamanı hər bir könüllünün hazırlıq səviyyəsi işçi qüvvəsi komandası və fəaliyyət göstərəcəkləri departamentlər tərəfindən qiymətləndirilib. Bu proses isə təkcə könüllülərin işə hazırlığını təmin etməyib, həm də onları bir ailə olaraq birləşdirib.

#### "Bu hissi heç vaxt unutmayacağam"

Konfrans könüllülərindən olan 19 yaşlı Səbinə Qaraşova Azərbaycan Texniki Universitetinin tələbəsidir. Səbinə dedi ki, könüllü kimi COP29-da iştirak etmək onun üçün yeni bir qapının açılması kimidir: "Tədbir boyunca həm ekoloji biliklərimi artırdım, həm də fərqli ölkələrdən gələn insanlarla tanış oldum. Ən təsirli məqam isə etdiyim işlərin həqiqətən də bir fayda verdiyini görmək idi. İştirakçıların təşəkkürlərini eşitmək və onların gözlərindəki məmnuniyyəti görmək məni daha da ruhlandırdı. Bu ilk könüllülük təcrübəm idi və davam edəcək. COP29 bu sahəyə marağımın artmasına səbəb oldu. Tədbir mənə göstərdi ki, kiçik addımlarla belə böyük dəyişikliklər etmək mümkündür. Bu hissi heç vaxt unutmayacağam".

Digər müsahibimiz Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbəsi 18 yaşlı Fərid Axundovdur. Fəridin sözlərinə görə, belə bir mötəbər tədbirdə könüllü kimi iştirak etmək sözlərlə ifadə edilməyəcək dərəcədə dəyərlidir: "Hər günümüz yeni təcrübələr və maraqlı anlarla dolu idi. Belə genişmiqyaslı tədbirin bir hissəsi olmaq mənim üçün həm böyük həyəcan, həm də qürur idi. Təlimlərdə iştirak edərək ekoloji mövzular haqqında biliklərimi artırdım və dayanıqlılıq anlayışını daha dərindən öyrəndim. Ən gözəl hissəsi isə fərqli yaş qruplarından və müxtəlif təcrübələrə malik olan insanlarla birlikdə çalışmaq oldu. Bu könüllülük təcrübəsi mənim şəxsi və peşəkar bacarıqlarımı gücləndirdi və gələcəkdə daha çox layihədə iştirak etməyə motivasiya verdi".

Rəhimə Cəmilova isə könüllülüyün onun ilk təcrübəsi olmadığını söylədi: "İlk könüllülük təcrübəm olmasa da, bu, indiyə qədər iştirak etdiyim ən böyük və əhəmiyyətli layihə idi. 18 yaşım var. Bakı Dövlət Universitetinin tələbəsiyəm. Belə bir beynəlxalq tədbirdə könüllü olmaq mənim üçün həm öyrədici, həm də ilhamverici oldu. Könüllülük müddətində çox şey öyrəndim - iştirakçıların qarşılanmasından tutmuş tədbirlərin təşkilində yaxından iştirak etməyə qədər hər şey. Əvvəlcə bu qədər böyük məsuliyyəti necə daşıyacağım barədə narahat idim, amma komandamızın dəstəyi ilə hər şeyin öhdəsindən gəldik. Bu təcrübə mənim üçün sadəcə könüllülük deyil, həm də özümü inkişaf etdirmək və ekologiya sahəsində daha çox məlumat əldə etmək üçün bir fürsət idi".

COP29 könüllüləri konfrans çərçivəsində təkcə öz bacarıqlarını nümayiş etdirmədilər, həm də bu mötəbər tədbirin yüksək səviyyədə həyata keçirilməsində vacib rol oynadılar. Bir sözlə, azərbaycanlı könüllülər davamlı və daha "yaşıl dünya" üçün mübarizə aparmaq kimi böyük missiyanın bir parçası oldular.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*











COP29
Baku
Azerbaijan

# COP29: keçmişdən gələcəyə şanlı keçid

## Türkiyə mediası COP29-un nəticələrini geniş işıqlandırıb

**Türkiyə mətbuatı Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yekunlarını geniş işıqlandırıb.**

AZƏRTAC xəbər verir ki, "Haber Global" telekanalı Bakıdan hazırladığı reportajda COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə üçün ildə 300 milyard dollar sərmayə qoymağa hazır olduqlarını elan edən inkişaf etmiş ölkələrin öhdəliklərinə diqqət çəkib.

Reportajda qeyd olunur ki, Bakıda ikihəftəlik intensiv danışıqlar "iqlim maliyyələşməsi"nin həcminin mərhələli artırılması ilə bağlı mühüm razılığın əldə olunmasına imkan verib.

Telekanal COP29-u "iqlim diplomatiyasında dönüş nöqtəsi" adlandıran Azərbaycan Prezidenti İlham Əliyevin çıxışına diqqət çəkib və bu məsələ ilə bağlı ekspert qiymətləndirmələrini də təqdim edib.

"Anadolu" xəbər agentliyi həmçinin COP29 çərçivəsində "iqlim maliyyələşməsi" mövzusunda fəal müzakirələrə, eləcə də Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizəyə töhfəsinə diqqət çəkib.

Qardaş ölkənin aparıcı informasiya agentliyi Prezident İlham Əliyevin "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutaraq, Azərbaycanın vicdanlı vasitəçi kimi çıxış etdiyini və iqlim danışıqlarına qərəzsiz dəstəklənməsi üçün bütün imkanlardan istifadə etdiyi barədə bəyanatından sitat gətirib.

Agentlik həmçinin Azərbaycanda iqlim sammitinin təşkilinin səviyyəsini yüksək qiymətləndirən Bosfor Universitetinin professoru Levent Kurnazın qiymətləndirməsini də qeyd edib.

Ekspert qeyd edib ki, Türkiyə COP29-da iştirakı sayəsində qardaş ölkənin bu cür irimiqyaslı tədbirlərin təşkili təcrübəsini, o cümlədən Ankaranın COP31-ə evsahibliyi etmək üçün müraciəti fonunda öyrənmək imkanı əldə edib.

Eyni zamanda L.Kurnaz iqlim dəyişiklikləri ilə mübarizədə Qərb ölkələrinin yekun öhdəliklərini qeyri-kafi adlandırıb.



















Ekoloji xəbərlər üzrə ixtisaslaşmış "Yeşil Gazete" ("Yaşıl Qəzet"), eləcə də bir sıra digər nəşrlər iqlim dəyişiklikləri ilə mübarizə ilə bağlı Türkiyənin Uzunmüddətli Strategiyasının təhlili prizmasından iqlim sammitinin nəticələrini işıqlandırıblar.

Türkiyənin media strukturları rəsmi Ankaranı kömürdən tamamilə imtina etməyə çağıran ölkədəki bir sıra ətraf mühit təşkilatlarının mövqeyini də işıqlandırıb.

*ICESCO-nun Baş direktoru:*

## "Azərbaycan COP29-da yüksək təşkilatçılıq bacarığını bir daha nümayiş etdirdi"

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən tədbirlərin böyük uğuru Azərbaycan Respublikasının intellektual və siyasi bacarıqlarını, texniki və logistik imkanlarını hər kəsə göstərdi və dünyanı heyran etdi. Bəşəriyyət iqlim dəyişikliklərinin qarşısının alınması, onun ətraf mühitə və insan mövcudluğuna təsiri ilə bağlı effektiv həllərin tapılmasına töhfə verəcək böyük konfransın şahidi oldu.**

**Bakıda COP29 konfransı çərçivəsində dünya dövlətlərinin və beynəlxalq təşkilatların böyük nümayəndə heyətlərinin iştirakına əlverişli imkanlar yaradıldı. Konfransın işində fəal iştirak edən beynəlxalq qurumlar arasında İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESCO da var idi. Təşkilatın nümayəndə heyətinə Baş direktor Salim bin Məhəmməd əl-Malik rəhbərlik edirdi.**

**Salim bin Məhəmməd əl-Malik AZƏRTAC-a müsahibəsində ICESCO-nun beynəlxalq iqlim tədbirində iştirakından danışıb, təəssüratlarını bölüşüb:**




*- ICESCO-nun COP29-da iştirakı barədə nə deyərdiniz?*

- Təşkilatımız COP29-da yüksək səviyyədə iştirak etdi. "Mavi zona"da bizim xüsusi pavilyonumuz qurulmuşdu. Bilirsiniz ki, "mavi zona" BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəfləri, eləcə də dövlətlərin rəsmi nümayəndə heyətləri, təsdiq olunmuş nəzarətçi statusunda olan nümayəndə heyətləri üçün nəzərdə tutulmuşdu. ICESCO da bu statusu 2023-cü ilin dekabrında alıb. Pavilyonumuzda 50-yə yaxın tədbir keçirildi, iqlim dəyişikliklərinin torpağa, mədəniyyətə və başqa sahələrə təsirləri müzakirə olundu. Bu tədbirlərdə ətraf mühitin qorunması və iqlim dəyişiklikləri üzrə ekspertlər yüksək səviyyədə iştirak etdilər.

Eyni zamanda ICESCO konfrans çərçivəsində bir sıra təşəbbüs və mühüm strategiya irəli sürdü. Bunlardan biri "Yaşıl innovatorlar ictimai birliyi" təşəbbüsüdür. Əsas hədəf iqlim davamlılığı sahəsində ən yaxşı təcrübələrin qeydə alınması və stimullaşdırılması üçün iqlim fəaliyyətlərinin sürətləndirilməsidir. Həmçinin su resurslarının davamlılığı sahəsində əməkdaşlıq üzrə ICESCO-nun yeni platformasının təsis edilməsi, müasir təcrübələrin kənd təsərrüfatına inteqrasiyası və davamlı inkişaf üzrə təşkilatın strategiyasının elan edilməsi, islam dünyasında təhsilin yaşıllaşdırılması üçün ICESCO Çərçivəsinin fəaliyyətə başlaması, eləcə də təşkilatın pavilyonunda Şuşanın 2024-cü ildə islam dünyasının mədəniyyət paytaxtı elan olunması tədbirləri çərçivəsində hazırlanmış "Şuşa: Azərbaycanın incisi" kitabının ərəb dilində nəşrinin təqdimat mərasiminin keçirilməsi mühüm hadisələrdən oldu.

Konfrans çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə görüşmək şərəfinə də nail oldum. Görüşdə əlaqələrimizin daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Təşkilatın nümayəndə heyəti Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammiti və Kosmik Liderlərin Sammiti başda olmaqla, bir sıra yüksəksəviyyəli sammitlərdə, görüşlərdə və panel iclaslarında iştirak etdi. Həmçinin təşkilat ixtisas sahələri üzrə nazirlər və yüksəksəviyyəli rəsmilərlə ikitərəfli görüşlər keçirdi. Bu görüşlərdə ICESCO və həmin qurumlar arasında iqlim fəaliyyəti sahəsində əməkdaşlıq müzakirə olundu.

ICESCO-nun iştirakı çərçivəsində Azərbaycan Respublikasının bir neçə qurumu ilə, o cümlədən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərlik etdiyi IDEA - Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq İctimai Birliyi, eləcə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə ikitərəfli sazişlər imzalandı.

Azərbaycan Respublikasına davamlı təşkilata dəstəyinə, ICESCO-nun COP29-da xüsusi pavilyonla iştirakına imkan yaratdığına və bu iştirakı dəstəklədiyinə görə bir daha dərin təşəkkür və minnətdarlığımı bildirirəm.

*- Bəs, bu qlobal əhəmiyyətli tədbirin təşkilini necə qiymətləndirirsiniz?*

- Azərbaycan dünyanın iqlim və ekoloji dəyişikliklərlə mübarizə sahəsində ən nüfuzlu tədbiri sayılan Tərəflər Konfransına (COP29) evsahibliyi edərək və təşkilatçılığı uğurla həyata keçirərək böyük nailiyyətə imza atdı. Konfrans günlərində Azərbaycan yüksək təşkilatçılıq bacarığını, insan kapitalını və müasir texnoloji potensialını bir daha nümayiş etdirdi. Qeyd etmək istərdim ki, COP29-da 4500-dən çox gəncin könüllü kimi iştirak etməsi də beynəlxalq tədbirin yüksək səviyyədə keçirilməsinə öz töhfəsini verdi. Azərbaycanın beynəlxalq aləmdəki nüfuzlu mövqeyi onu son illərdə yüksəksəviyyəli konfranslar və beynəlxalq tədbirlər üçün əsas məkanlardan birinə çevirib.

Bakının bu mötəbər tədbirə uğurla evsahibliyi etməsi islam ölkələrinin bilik və təcrübəsinin daha da zənginləşməsinə öz töhfəsini verəcək.

Sonda Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya COP29 konfransının uğurla keçməsi münasibətilə səmimi təbriklərimi çatdırmaq istəyirəm. Bakı dünyanın daha təhlükəsiz, təşkilatlanmış və inkişaf etmiş paytaxtlarından biri kimi iqlim fəaliyyəti sahəsində aparıcı beynəlxalq iştirakçıları bir araya gətirən belə qlobal tədbirə evsahibliyi etməyə layiq olduğunu bir daha sübut etdi.




## COP29-un yekunu dünya mediasının diqqət mərkəzindədir




**COP29-un yekunu dünya mediasının diqqət mərkəzindədir BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yekunu dünya mediasının diqqət mərkəzindədir. Bununla bağlı xarici mediada çoxlu sayda xəbərlər, məqalələr dərc olunub.**

AZƏRTAC xəbər verir ki, euronews.com saytı COP29-da yalnız maliyyə məsələlərinə deyil, eləcə də digər mühüm məsələlərə toxunulmasından və bununla bağlı qərarlar verilməsindən yazıb.

"Reuters", "The Guardian", "BBC", "CNN" kimi xarici medialarin əsas diqqəti COP29 razılaşmasına yönəlib. Bu media qurumlarında inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunması ilə bağlı müəyyən fikirlər öz əksini tapıb.

"CBS news" telekanalı isə imzalanmış razılaşmaya toxunaraq bəzi nümayəndə heyətlərinin bu sövdələşmənin düzgün istiqamətdə getdiyini və gələcəkdə daha çox pul axınının olacağına ümid etdiyini vurğulayıb. Həmçinin qeyd edilib ki, ölkələr bu sövdələşmənin çoxtərəfli inkişaf bankları və özəl sektorlar kimi digər mənbələrdən maliyyələşdirməyə kömək edən siqnallar göndərəcəyini gözləyirlər.

"Bloomberg" agentliyi inkişaf etməkdə olan ölkələrə kömək etmək üçün vəsaitin üç dəfə artırılması ilə bağlı təxminən 200 ölkənin qəbul etdiyi razılaşmadan yazıb. Məqalədə COP29 ərəfəsində çoxsaylı görüşlərin keçirilməsi də vurğulanılıb.

"Traveldaily news"da isə qeyd edilib ki, COP29 çərçivəsində keçirilən "Turizm Günü" tədbirlərində 700-dən çox maraqlı tərəf iştirak edib.

*Türkiyəli ekspert:*

## "COP29 iqlim böhranı ilə mübarizədə yeni başlanğıcdır"

**"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Azərbaycanda keçirilən 29-cu sessiyasının (COP29) nəticələri iqlim böhranı ilə mübarizədə mühüm səhifə açacaq və ətraf mühitin mühafizəsində yeni başlanğıc olacaq".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərlə söhbətində Egey Universitetinin (Türkiyə) Biologiya kafedrasının dosenti İnci Tuney Kızılkaya bölüşüb.

Ekspert diqqəti iqlim böhranı ilə mübarizə üçün kollektiv addımlar atmağa hazır olduqlarını nümayiş etdirən COP29 iştirakçılarının mövqeyinə çəkib və inkişaf etmiş ölkələrin Bakıda iqlim məqsədləri üçün 2035-ci ilə qədər olan dövrdə hər il 300 milyard dollar ayırmaq öhdəliyini qəbul etməsinin vacibliyini vurğulayıb.

Türkiyəli ekspert əmin olduğunu bildirib ki, COP29-un Azərbaycanda qəbul etdiyi qərarlar ölkələrin iqlim böhranı ilə mübarizə imkanlarını genişləndirəcək və onlara dəyişən ekoloji şəraitə daha səmərəli uyğunlaşmağa imkan verəcək. "Çox vacibdir ki, Braziliyada COP30-a qədər olan dövrdə Bakıda qəbul edilmiş bütün qərarlar icra olunur", - deyə dosent vurğulayıb.

Ekspert həmçinin COP29-da daha iddialı məqsədlər, yeni iqlim dəyişikliyi ilə mübarizə üçün ən azı 1,3 trilyon dollar vəsaitin ayrılması barədə razılığa gəlməyə çağıran az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin mövqeyinə diqqət çəkib və BMT-nin Baş katibi Antonio Quterreşin ekoloji sahədə daha qəti addımların atılmasının zəruriliyi barədə sözlərini sitat gətirib.

İ.Tuney Kızılkaya "yaşıl gündəliy"in həyata keçirilməsində vətəndaş cəmiyyətinin, xüsusilə gənclərin və qadınların ən fəal iştirakının vacibliyini də qeyd edib.

Egey Universitetinin dosenti hesab edir: "Dövlətlərin mədən yanacaqlarının istifadəsindən tədricən imtina etməsi və sənayelərin bağlanması ilə birlikdə işsizlik də artacaq. Ona görə də bu gün ölkələrin davamlı inkişafı üçün vacib olan "yaşıl texnologiya"lara əsaslanan kadrların hazırlanmasına başlamaq lazımdır".

COP29 Baku Azerbaijan

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2024-cü ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | **Əhmədov Əli Cavad oğlu** | 02 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>05, 25 (Bakı şəhəri) | Rəşadət Xalıqov<br>+99450 263 5318<br>25sayli_sd@meclis.gov.az |
| 2. | **Əsgərov Ziyafət Abbas oğlu** | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>02, 06 (Naxçıvan MR, Şərur rayonu) | Günay Orucova<br>+99451 641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | **Qasımlı Musa Cəfər oğlu** | 11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 18 (Yardımlı rayonu) | Adil Mustafayev<br>+99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | **Hüseynov Rafael Baba oğlu** | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12 (Hacıqabul rayonu)<br>19 (Kürdəmir rayonu) | Ceyhun Ağayev<br>+99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | **Abbasov Aqil Məhəmməd oğlu** | 06 (Bakı şəhəri)<br>21 (Ağcabədi rayonu) | Ceyhun Rüstəmov<br>+99450 212 6641<br>85sayli_sd@meclis.gov.az |
| 6. | **Ağamalı Günay Fəzail qızı** | 07 (Salyan rayonu)<br>14 (Neftçala və Biləsuvar rayonları) | Pərviz Mirizadə<br>+99451 640 1962<br>65sayli_sd@meclis.gov.az |
| 7. | **Ağayeva Ülviyyə Cavanşir qızı** | 21, 22 (Tovuz rayonu)<br>22 (Ağstafa rayonu)<br>23 (Qazax rayonu) | Arzu Musayeva<br>+99451 340 3070 / +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | **Ağazadə Əminə Həmid qızı** | 05, 12 (Kürdəmir rayonu) | Namiq Ağayev<br>+99455 298 8050<br>62sayli_sd@meclis.gov.az |
| 9. | **Akimova Elnarə Seydulla qızı** | 04, 25 (Sumqayıt şəhəri) | Tayfun Hacılı<br>+99470 220 0577<br>46sayli_sd@meclis.gov.az |
| 10. | **Alıyev Sahib Eyvaz oğlu** | 11, 28 (Ağdaş rayonu) | Rəhman Rəhmanov<br>+99450 277 0984<br>93sayli_sd@meclis.gov.az |
| 11. | **Allahverənov Azər Kərim oğlu** | 21, 28 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev<br>+99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | **Arpadarai Nigar Cavid qızı** | 11, 18 (Bakı şəhəri) | Bəhruz Teymurov<br>+99450 304 2112<br>7sayli_sd@meclis.gov.az |
| 13. | **Aslanov Novruzəli Davud oğlu** | 05, 19, 26 (İsmayıllı rayonu) | Kamran Xanlarlı<br>+99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 14. | **Badamov Azər Camal oğlu** | 09, 23 (Qusar rayonu) | General Sadulov<br>+99450 313 2962<br>61sayli_sd@meclis.gov.az |
| 15. | **Bayramov Kamran Fərhad oğlu** | 14 (Göygöl rayonu)<br>28 (Daşkəsən rayonu) | Məmməd Məmmədli<br>+99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 16. | **Bayramov Vüqar İbad oğlu** | 05, 25 (Füzuli rayonu) | Eltun Ağakişiyev<br>99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 17. | **Bədəlov Bədəl Şamil oğlu** | 07 (Goranboy rayonu)<br>21 (Naftalan şəhəri) | Mahyəddin Mazanov<br>+99470 310 2733<br>96sayli_sd@meclis.gov.az |
| 18. | **Cəfərov Kamal Xaqani oğlu** | 12, 19 (Sabirabad rayonu) | Azad Əhmədbəyli<br>+99455 222 2588<br>68sayli_sd@meclis.gov.az |
| 19. | **Cəfərov Müşfiq Cəfər oğlu** | 07 (Gəncə şəhəri)<br>19 (Samux rayonu) | Sahib Əmiraslanov<br>+99450 255 2039<br>41sayli_sd@meclis.gov.az |
| 20. | **Cəfərova Tamam Şaməmməd qızı** | 07, 21 (Şamaxı rayonu) | Aytəkin Quliyeva<br>+99451 466 0090<br>88sayli_sd@meclis.gov.az |
| 21. | **Əfəndiyev Məzahir Cavid oğlu** | 14 (Göyçay rayonu)<br>26 (Ağdaş rayonu) | Murad Abdullayev<br>+99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 22. | **Əfəndiyeva Günay Elçin qızı** | 07, 14 (Bakı şəhəri) | Məhsəti Qarayeva<br>+99455 235 1575<br>14sayli_sd@meclis.gov.az |
| 23. | **Ələkbərov Əziz Yusif oğlu** | 14, 21 (Saatlı rayonu) | Samir Nəsirov<br>+99450 247 4355<br>66sayli_sd@meclis.gov.az |
| 24. | **Əliyev Bəxtiyar Həmzə oğlu** | 07, 21 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov<br>+99450 288 2292<br>119sayli_sd@meclis.gov.az |
| 25. | **Əliyeva Jalə Fazil qızı** | 03 (Ucar rayonu)<br>04 (Zərdab rayonu)<br>05 (Kürdəmir rayonu) | Firdovsi Eyvazov<br>+99450 331 9434<br>95sayli_sd@meclis.gov.az |
| 26. | **Əli-zadə Arzuxan Baxşəli oğlu** | 14, 28 (Bakı şəhəri) | Yəhya Həsənov<br>+99455 814 0555 / +99450 3155842<br>27sayli_sd@meclis.gov.az |
| 27. | **Əmiraslanov Azər Kamal oğlu** | 20 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>09, 19 (Ağstafa rayonu) | Əlövsət Allahyarov<br>+99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 28. | **Əmiraslanov Əhliman Tapdıq oğlu** | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>21, 28 (Sabirabad rayonu) | Raqif Xəlilov<br>+99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 29. | **Əsədov Heydər Xanış oğlu** | 12, 27 (Şirvan şəhəri) | Zahir Qəhramanov<br>+99450 216 0470<br>51sayli_sd@meclis.gov.az |
| 30. | **Əsgərov Asif Yunis oğlu** | 14, 28 (Zaqatala rayonu) | Elbrus Məmmədov<br>+99455 677 6262<br>112sayli_sd@meclis.gov.az |
| 31. | **Feyziyev Cavanşir Əyyub oğlu** | 07, 21 (Şəki şəhəri) | Turan Salamov<br>+99455 280 7750 / +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 32. | **Fətəliyeva Sevinc Həbib qızı** | 06, 23 (Bakı şəhəri) | Eldar Qurbanov<br>+99450 277 0956<br>30sayli_sd@meclis.gov.az |
| 33. | **Fətiyev Xanlar Nuru oğlu** | 02, 23 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə<br>+99450 243 9030<br>98sayli_sd@meclis.gov.az |
| 34. | **Gəncəliyev Tural Babaşah oğlu** | 12, 26 (Bakı şəhəri) | Xatirə Əliyeva<br>+99455 722 7431<br>122sayli_sd@meclis.gov.az |
| 35. | **Hacıyev Sabir Kamal oğlu** | 05, 19 (Göyçay rayonu) | Əli Qafarov<br>+99450 200 2209<br>91sayli_sd@meclis.gov.az |
| 36. | **Həmzəyev Naqif Ələşrəf oğlu** | 14, 24 (Gəncə şəhəri) | Sərxan İmanov<br>+99450 255 1438<br>38sayli_sd@meclis.gov.az |
| 37. | **Həmzəyeva Ülviyyə Tapdıq qızı** | 07 (Naxçıvan MR, Culfa rayonu)<br>14, 21 (Naxçıvan MR, Babək rayonu)<br>28 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Araz Xudiyev<br>+99450 658 2375<br>5sayli_sd@meclis.gov.az |
| 38. | **Həsən Ramil Sahib oğlu** | 11, 19 (Ucar rayonu) | Vüqar Səlimov<br>+99451 215 6141<br>94sayli_sd@meclis.gov.az |
| 39. | **Həsənquliyev Qüdrət Müzəffər oğlu** | 14, 21 (Bakı şəhəri) | Hüseyn Müzəfferli<br>+99450 547 7764<br>36sayli_sd@meclis.gov.az |
| 40. | **Həsənov Malik Əvəz oğlu** | 11, 25 (Cəlilabad rayonu) | Ələddin Əliyev<br>+99450 277 0467<br>71sayli_sd@meclis.gov.az |
| 41. | **Həsənov Nurlan Urfan oğlu** | 07, 14 (Şəmkir rayonu) | Anar Quliyev<br>+99450 753 4433<br>103sayli_sd@meclis.gov.az |
| 42. | **Həsənova Afət Əbil qızı** | 05, 18 (Bakı şəhəri) | Namiq Mustafayev<br>+99450 320 3286<br>32sayli_sd@meclis.gov.az |
| 43. | **Hüseynli Əli Məhəmməd oğlu** | 02 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 28 (Yevlax şəhəri) | Bayram Yusifov<br>+99450 262 6131<br>53sayli_sd@meclis.gov.az |
| 44. | **Hüseynov Aydın Nəsir oğlu** | 11, 18 (Bakı şəhəri) | Vüsal Yusifov<br>+99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 45. | **Hüseynova Hicran Kamran qızı** | 09 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11, 25 (Sumqayıt şəhəri) | Elçin Kərimov<br>+99451 460 5334<br>42sayli_sd@meclis.gov.az |
| 46. | **Hüseynova Sevinc Əmirəhməd qızı** | 02, 28 (Gədəbəy rayonu)<br>24 (Bakı şəhəri) | Elxan İsmayılov<br>+99450 642 0979<br>104sayli_sd@meclis.gov.az |
| 47. | **Xasayeva Səbinə Səməd qızı** | 04, 18 (Bakı şəhəri) | Bayram Məmmədov<br>+99455 596 2134<br>11sayli_sd@meclis.gov.az |
| 48. | **İbrahimqızı Məlahət İbrahim qızı** | 05, 26 (Bakı şəhəri) | Xətai Məmmədli<br>+99450 255 2142<br>21sayli_sd@meclis.gov.az |
| 49. | **İbrahimli Fəzail Feyruz oğlu** | 05, 25 (Masallı rayonu) | Faiq Ağayev<br>+99450 201 5670 / +99450 277 5549<br>73sayli_sd@meclis.gov.az |
| 50. | **İbrahimov Eldar Rza oğlu** | 02, 06 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov<br>+99450 255 1306<br>4sayli_sd@meclis.gov.az |
| 51. | **İsgəndərov Anar Camal oğlu** | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 21 (Lənkəran şəhəri) | Valeh Mikayılov<br>+99450 335 2232<br>78sayli_sd@meclis.gov.az |
| 52. | **İskəndərov Vüqar Yapon oğlu** | 07, 21 (Şəki şəhəri) | Anar Nağıyev<br>+99450 295 0115<br>114sayli_sd@meclis.gov.az |
| 53. | **İsmayılov İmamverdi İbiş oğlu** | 07, 21 (Sumqayıt şəhəri) | Məlahət Əzizova<br>+99450 855 2026<br>125sayli_sd@meclis.gov.az |
| 54. | **İsmayılov Şahin Əmir oğlu** | 24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 21 (Beyləqan rayonu) | Çingiz Səfərov<br>+99455 444 3366<br>83sayli_sd@meclis.gov.az |
| 55. | **İsmayılzadə Fariz Akif oğlu** | 17, 28 (Lənkəran şəhəri) | Ülviyyə Əliyeva<br>+99455 718 7872<br>77sayli_sd@meclis.gov.az |
| 56. | **Kərimli Azər Şəmşid oğlu** | 07, 21 (Zaqatala rayonu) | Samir Hüseynzadə<br>+99455 830 1363<br>111sayli_sd@meclis.gov.az |
| 57. | **Kərimzadə Pərvin Orxan qızı** | 03, 24 (Gəncə şəhəri) | Hicran Məmmədova<br>+99450 692 8685<br>39sayli_sd@meclis.gov.az |
| 58. | **Qafarov Kamaləddin Nəsrəddin oğlu** | 04, 18 (Bakı şəhəri) | Nazim Cəfərov<br>+99450 708 6911<br>9sayli_sd@meclis.gov.az |
| 59. | **Qafarov Vasif Vaqif oğlu** | 07 (Lerik rayonu)<br>21 (Astara rayonu) | Pərviz Ağaxanlı<br>+99455 628 6966<br>80sayli_sd@meclis.gov.az |
| 60. | **Qasımlı Mircəlil Xəqani oğlu** | 11, 28 (Gəncə şəhəri) | Anar Çıraqov<br>+99499 309 1131<br>123sayli_sd@meclis.gov.az |
| 61. | **Qədirli Erkin Toğrul oğlu** | 09, 16 (Bakı şəhəri) | Fariz Zöhrabov<br>+99470 918 3110<br>16sayli_sd@meclis.gov.az |
| 62. | **Qəhrəmanov Göydəniz İbrahim oğlu** | 07, 19 (Bakı şəhəri) | Rəhim Qədirov<br>+99450 555 8845<br>17sayli_sd@meclis.gov.az |
| 63. | **Quliyev Azay Əjdər oğlu** | 18, 26 (Bakı şəhəri) | Asəf Vəliyev<br>+99450 578 5187<br>8sayli_sd@meclis.gov.az |
| 64. | **Quliyev Eldar Allahyar oğlu** | 15, 29 (Bakı şəhəri) | Yaşar Məmmədov<br>+99450 983 9310<br>28sayli_sd@meclis.gov.az |
| 65. | **Quliyev Musa İsa oğlu** | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 28 (Gəncə şəhəri) | Göyüş Şəfizadə<br>+99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 66. | **Quliyev Ülvi Zahid oğlu** | 05, 25 (Bakı şəhəri) | Nurlan Qurbanov<br>+99450 2415156<br>15sayli_sd@meclis.gov.az |
| 67. | **Qurbanlı Mübariz Qəhrəman oğlu** | 18 (Bakı şəhəri)<br>26 (Samux rayonu) | Elnur Tağıyev<br>+99455 212 8191<br>101sayli_sd@meclis.gov.az |
| 68. | **Qurbanov Eyvaz Daşdəmir oğlu** | 07, 21 (Oğuz rayonu) | Səxavət Kərimov<br>+99470 510 6968 / +99451 774 3782<br>117sayli_sd@meclis.gov.az |
| 69. | **Qurbanov Sadiq Haqverdi oğlu** | 06 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 21 (Salyan rayonu) | Elnur Rəhimov<br>+99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 70. | **Mahmudov Rəşad Məmmədqulu oğlu** | 07, 21 (Astara rayonu) | Emin Cəfərov<br>+99450 277 0419<br>79sayli_sd@meclis.gov.az |
| 71. | **Məhəməliyev Nəsib Məhəmməd oğlu** | 07, 21 (Balakən rayonu) | Yusif Mirzəyev<br>+99450 213 6259<br>110sayli_sd@meclis.gov.az |
| 72. | **Məhərrəmov Bəhruz Abdurrəhman oğlu** | 09, 16 (Biləsuvar rayonu) | Əfsun Əlizadə<br>+99450 277 0436<br>69sayli_sd@meclis.gov.az |
| 73. | **Məhərrəmzadə Əlibala Səttar oğlu** | 07, 14 (Quba rayonu) | Elnur Xəlilov<br>+99455 308 4950<br>59sayli_sd@meclis.gov.az |
| 74. | **Məmmədli Müşfiq Fazil oğlu** | 07 (Xızı rayonu)<br>14 (Quba rayonu) | Nəsimi Əliyev<br>+99455 887 1314<br>55sayli_sd@meclis.gov.az |
| 75. | **Məmmədov Anar İlyaz oğlu** | 07 (Tərtər rayonu)<br>08 (Goranboy rayonu)<br>14 (Abşeron rayonu)<br>15 (Bakı şəhəri)<br>28 (Tərtər rayonu)<br>29 (Goranboy rayonu) | Elçin Cahangirov<br>+99450 324 2791<br>97sayli_sd@meclis.gov.az |
| 76. | **Məmmədov Ceyhun Valeh oğlu** | 07, 21 (Bakı şəhəri) | Rəşad Quliyev<br>+99455 847 5621<br>120sayli_sd@meclis.gov.az |
| 77. | **Məmmədov Elman Camal oğlu** | 14, 21 (Ağdam rayonu) | Mahir Rzayev<br>+99450 288 6629 / +99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 78. | **Məmmədov Hikmət Baba oğlu** | 11, 18 (Bakı şəhəri) | Azər Quliyev<br>+99450 277 1219<br>19sayli_sd@meclis.gov.az |

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2024-cü ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 79. | Məmmədov İlham Kazım oğlu | 14, 28 (Yevlax şəhəri) | Rüstəm Əliyev<br>+99450 277 7417<br>52sayli_sd@meclis.gov.az |
| 80. | Məmmədov Qaya Məmməd oğlu | 07, 14 (Bakı şəhəri) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>31sayli_sd@meclis.gov.az |
| 81. | Məmmədov Məşhur Şahbaz oğlu | 07, 21 (Masallı rayonu) | Əli Nağıyev<br>+99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 82. | Məmmədov Soltan Teymur oğlu | 07, 21 (Bakı şəhəri) | Azər Məlikov<br>+99450 373 4403<br>12sayli_sd@meclis.gov.az |
| 83. | Məmmədova Nigar Fikrət qızı | 04, 18 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova<br>+99450 710 0838<br>48sayli_sd@meclis.gov.az |
| 84. | Məsimli Əli Əhməd oğlu | 01 (Şəki şəhəri)<br>21 (Qax rayonu) | Vüsal Baxışov +99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 85. | Mikayılova Sevil Əlirazı qızı | 06, 16 (Xaçmaz rayonu) | İradə Çobanova<br>+99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 86. | Mirkişili Tahir Famil oğlu | 09, 23 (Sumqayıt şəhəri) | Cavid Quliyev<br>+99450 277 1868<br>43sayli_sd@meclis.gov.az |
| 87. | Mirzəbəyli Elçin Əbdülrəhim oğlu | 11, 25 (Ağsu rayonu) | İbrahim Bağırlı<br>+99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 88. | Mirzəzadə Aydın Böyükkişi oğlu | 13, 21 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov<br>+99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 89. | Mollazadə Asim Nazim oğlu | 11, 25 (Bakı şəhəri) | İlkin Həsənov<br>+99450 203 7066<br>22sayli_sd@meclis.gov.az |
| 90. | Möhbalıyev Səttar Suliddin oğlu | 05 (Naxçıvan MR, Babək rayonu)<br>19 (Naxçıvan MR, Şahbuz rayonu) | Rizvan Hüseynquliyev<br>+99455 744 2537 / +99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 91. | Muradov Rövşən Şahbaz oğlu | 07, 21 (Bakı şəhəri) | Murad Həsənli<br>+99450 510 9897<br>121sayli_sd@meclis.gov.az |
| 92. | Musabəyov Rasim Nəsrəddin oğlu | 02, 23 (Bakı şəhəri) | Asif Nəsibov<br>+99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 93. | Musayev Elşad Nəbi oğlu | 14, 21 (Bakı şəhəri) | Vüqar Qasımov<br>+99455 744 9919 / +99450 669 5919<br>10sayli_sd@meclis.gov.az |
| 94. | Musayev Elşən Məmmədhənifə oğlu | 09, 23 (Qəbələ rayonu) | Cəfər Əliyev<br>+99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 95. | Mustafa Fazil Qəzənfər oğlu | 13 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>02, 09, 16, 23, 30 (Bakı şəhəri) | Əjdər Əliyev<br>+99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 96. | Nağıyev Arzu Nəsib oğlu | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası<br>14 (Tovuz rayonu)<br>28 (Gədəbəy rayonu) | Elşad İsmayılov<br>+99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 97. | Namazov Ramid Zakir oğlu | 07, 21 (Abşeron rayonu) | Ramil Şükürov<br>+99410 412 1079<br>50sayli_sd@meclis.gov.az |
| 98. | Nəbiyev Rizvan Novruz oğlu | 07, 26 (Abşeron rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>49sayli_sd@meclis.gov.az |
| 99. | Nəsirov Elman Xudam oğlu | 07, 21 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev<br>+99450 538 7364<br>72sayli_sd@meclis.gov.az |
| 100. | Novruzov Siyavuş Dünyamalı oğlu | 25 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>01, 21 (Naxçıvan MR, Şərur rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>2sayli_sd@meclis.gov.az |
| 101. | Nurullayev Razi Qulaməli oğlu | 11, 25 (İmişli rayonu) | Vüqar Süleymanov<br>+99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 102. | Nurullayeva Könül Oruc qızı | 09, 23 (Bakı şəhəri) | Sabit Mahmudov<br>+99450 206 0254 / +99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 103. | Oruc Zahid Məhərrəm oğlu | 23 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>06, 27 (Bakı şəhəri) | Ceyhun Fərəcov<br>+99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 104. | Paşayeva Gülşən Məmmədəli qızı | 14, 28 (Bakı şəhəri) | Fidan Əliyeva<br>+99477 593 4688<br>13sayli_sd@meclis.gov.az |
| 105. | Paşazadə Cavanşir Hümmət oğlu | 19, 26 (Lənkəran şəhəri) | Sulduz Ağayev<br>+99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 106. | Polad Bülbüloğlu | 26 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 28 (Şuşa, Ağdam və Xocavənd rayonları) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>124sayli_sd@meclis.gov.az |
| 107. | Rafailov Anatoliy Xaimoviç | 07, 21 (Quba rayonu) | Qəhrəman Qasımov<br>+99450 364 3926 / +99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | Rəhimzadə Vüqar Gəncəli oğlu | 07 (Naxçıvan MR, Culfa rayonu)<br>21 (Naxçıvan MR, Ordubad rayonu) | Məhərrəm Əliverdiyev<br>+99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | Rüstəmxanlı Tənzilə Yolçu qızı | 15, 28 (Neftçala rayonu) | Fərman Hüseynov<br>+99477 550 5131<br>70sayli_sd@meclis.gov.az |
| 110. | Rzayev Tahir Musa oğlu | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13, 14, 25, 26 (Ağcabədi rayonu) | Samir Məmmədov<br>+99470 200 3285<br>86sayli_sd@meclis.gov.az |
| 111. | Salahlı Səyyad Adil oğlu | 28 (İmişli rayonu)<br>29 (Saatlı rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>82sayli_sd@meclis.gov.az |
| 112. | Salmanova Səbinə Qədir qızı | 02, 21 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov<br>+99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 113. | Seyidov Səməd İsmayıl oğlu | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası<br>09, 23 (Qazax rayonu) | Akif Əmirov<br>+99450 791 2111<br>109sayli_sd@meclis.gov.az |
| 114. | Seyidzadə Şahin Kamil oğlu | 04 (İsmayıllı rayonu)<br>19 (Qobustan və Şamaxı rayonları) | Elman Mikayılov<br>+99450 288 9938<br>87sayli_sd@meclis.gov.az |
| 115. | Səfərov Nizami Abdulla oğlu | 16, 25 (Tovuz rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>106sayli_sd@meclis.gov.az |
| 116. | Səmədzadə Ziyad Əliabbas oğlu | 05, 26 (Bakı şəhəri) | Quliyev Azad<br>+99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 117. | Süleymanlı Mahir Tahir oğlu | 06 (Şabran rayonu)<br>21 (Xaçmaz rayonu) | Simran Süleymanov<br>+99451 906 6669<br>56sayli_sd@meclis.gov.az |
| 118. | Şükürov Zaur Ramiz oğlu | 04 (Bakı şəhəri)<br>23 (Sumqayıt şəhəri) | Aslan Talıbov<br>+99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 119. | Vəliyev Ağalar İsrəfil oğlu | 04, 18 (Xaçmaz rayonu) | İlham Musayev<br>+99450 275 0111<br>57sayli_sd@meclis.gov.az |
| 120. | Vəliyev Samir Əhməd oğlu | 05, 19 (Bakı şəhəri) | Vüsal Əliyev<br>+99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 121. | Vəliyeva Mehriban Hidayət qızı | 09, 25 (Sumqayıt şəhəri) | Ramiz Alıyev<br>+99455 211 3437<br>44sayli_sd@meclis.gov.az |
| 122. | Vəliyeva Pərvanə Bulut qızı | 07, 14, 21 (Bakı şəhəri) | Kamil Hacıyev<br>+99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 123. | Yıldırım Fatma Vidadi qızı | 09, 21 (Bərdə rayonu) | Fuad Ağayev<br>+99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 124. | Zabelin Mixail Yuryeviç | 14, 21 (Bakı şəhəri) | Firdovsi Cahangirov<br>+99450 225 2722<br>34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.

# Kəlbəcər yenidən qurulur, əvvəlki simasına qayıdır

## Azadlığının təntənə gününü qeyd edən rayonda "yaşıl enerji" strategiyasına uyğun olaraq 5 kiçik su-elektrik stansiyası tikilir

**"Kəlbəcər rayonu 1993-cü il aprel ayının 2-də Ermənistan ordusu tərəfindən işğal edilmişdi. Dağlıq Qarabağ ərazisindən kənarda yerləşən Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi nəticəsində yerli əhali min illər boyu yaşadığı ata-baba torpağından didərgin salınmışdı. Ermənistan silahlı birləşmələrinin Kəlbəcəri işğal etməsindən sonra BMT Təhlükəsizlik Şurası 822 saylı qətnamə qəbul etmişdi. Beynəlxalq təşkilatın qətnaməsində bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunan rayonlarından dərhal çıxarılması tələb olunmuşdu. Lakin digər qətnamələr kimi, bu sənəd də kağız üzərində qalmışdı. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq, 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin daha aktiv şəkildə məskunlaşdırılmasına başlanılmışdır. Dünyanın yüzlərlə ölkəsinin cəmləşdiyi beynəlxalq təşkilatın 27 ildə sadəcə kağız üzərində qalan qətnaməsinin tələblərini Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu cəmi 44 gün ərzində reallaşdırmışdı".**



Bu fikirləri Milli Məclisin deputatı Kamran Bayramov bildirib.

Deputat qeyd edib ki, Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə nəticəsində tarixi ədalət bərpa edildi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. O cümlədən Ermənistanın məcbur qalaraq imzaladığı 10 noyabr üçtərəfli Bəyanatına əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi. Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi bir güllə belə atılmadan işğaldan azad edildi. 2020-ci il noyabrın 26-da "Kəlbəcərin azad olunmasına görə" medalı təsis olundu. Prezident İlham Əliyevin sərəncamları ilə Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 9455 hərbi qulluqçusu "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilmişdir. Sözügedən sərəncama əsasən, 25 Noyabr Kəlbəcər Şəhəri Günü kimi müəyyən olunub.

Deputat diqqətə çatdırıb ki, bu gün dünya Vətən müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işlərinə şahidlik edir. Dövlət işğaldan azad olunmuş torpaqlarımızda həyatın canlanmasına, keçmiş məcburi köçkünlərin tezliklə öz el-obalarına qayıtmasına çalışır. Qısa zaman içərisində inanılmaz işlər görülüb. Yollar, elektrik və su xətləri çəkilir, hava limanları tikilir. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərdə ermənilər tərəfindən dağıdılan kəndlər, şəhərlər, tarixi mədəni-dini abidələr yenidən qurulur. Aparılan kompleks bərpa işləri Prezident İlham Əliyevin qətiyyətinin və iradəsinin təcəssümüdür.

Kəlbəcərdə həyata keçirilən layihələr, görülən işlər bir daha deməyə imkan verir ki, işğaldan azad olunan ərazilərimiz müasir standartlara uyğun olaraq qurulur. Kəlbəcərdə 2026-cı ilədək 1-i şəhər, 1-i qəsəbə, 13-ü kənd olmaqla ümumilikdə 15 yaşayış məntəqəsinin bərpası həyata keçiriləcək.

Bölgənin ölkənin ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün yeni elektrik stansiyaları və yarımstansiyalar tikilir. Bu stansiya və yarımstansiyalar işğaldan azad olunan ərazilərdə yerləşən hərbi obyektləri, yeni yaradılan sosial-iqtisadi infrastrukturu fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin edəcək. "Yaşıl enerji" strategiyasına uyğun olaraq, hazırda Kəlbəcər rayonunun ərazisində ümumi gücü 27 meqavat olan 5 kiçik su-elektrik stansiyası tikilir. Kiçik su-elektrik stansiyalarında ümumilikdə 9 hidroaqreqat fəaliyyət göstərəcək. Kəlbəcərdə yeni tikilən elektrik stansiyalarında il ərzində ümumilikdə 100 milyon kilovat-saata yaxın ekoloji cəhətdən təmiz enerji istehsal olunacaq. Bu isə 50 milyon kubmetr təbii qaza qənaət edilməsi deməkdir.

Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində strategiyasına uyğun olaraq, "Azərenerji" ASC tərəfindən Kəlbəcərdə yeni tikilən "Yuxarı Vəng" Su Elektrik-Stansiyası Vətən müharibəsində Qələbəmizdən sonra regionda yaradılan ən böyük "yaşıl enerji" mənbəyidir. Belə ki, təkcə bu SES-də istehsal edilən "yaşıl enerji" növbəti 5 il ərzində Kəlbəcər rayonunun elektrik enerjisi tələbatını tam ödəyə bilər. Ümumi gücü 40 meqavat olan "Kəlbəcər" SES silsiləsi azad edilən ərazilərdə 42 meqavatlıq "Zəngilan" SES silsiləsindən sonra tikilən ikinci böyük silsilədir.

K.Bayramov əlavə edib ki, Kəlbəcərin ilk yaşayış məhəlləsi 3,26 hektar ərazidə layihələndirilib. Yaşayış məhəlləsinin konsepsiyası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə icra olunan baş plan layihəsi çərçivəsində hazırlanıb. Məhəllədə dördmərtəbəli 3 və ikimərtəbəli 10 yaşayış binasının inşası nəzərdə tutulur. Burada 112 mənzildə ümumilikdə 460 nəfərdən çox sakin yaşayacaq. Məhəllədəki məktəbin ətrafında salınacaq yaşıllıq ərazi ictimai məkan funksiyasını yerinə yetirməklə əhalinin asudə vaxtının səmərəli keçirilməsinə xidmət edəcəkdir.

